29 noyabr 2018 №87 (1577) www.medeniyyet.az

# MƏDƏNİYYƏT

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri

Qəzet 1991-ci ilin yanvarından çıxır

# Mədəni irsimizin UNESCO-da növbəti təntənəsi

## Minilliklərin yaşıdı olan Yallı rəqsi və "Dədə Qorqud" dastanı ilə bağlı nominasiyalar bəşəriyyətin xəzinəsinə daxil edilib

Mavriki Respublikasının (Şərqi Afrikada, Hind okeanında kiçik ada-dövlət) paytaxtı Port Luis şəhərində UNESCO-nun Qeyri-maddi mədəni irsin qorunması üzrə Hökumətlərarası Komitəsinin 13-cü sessiyası keçirilir.

Noyabrın 26-dan dekabrın 1-dək davam edəcək sessiyada Azərbaycan Respublikası xarici işlər nazirinin müavini Ramiz Həsənovun başçılığı ilə nümayəndə heyəti iştirak edir. Heyətə ölkəmizin UNESCO yanında daimi nümayəndəsi Anar Kərimov, xüsusi tapşırıqlar üzrə səfir – UNESCO üzrə Azərbaycan Respublikası Milli Komissiyasının baş katibi Elnur Sultanov, Mədəniyyət Nazirliyinin Aparat rəhbərinin müavini – Beynəlxalq əməkdaşlıq və innovativ inkişaf şöbəsinin müdiri Vasif Eyvazzadə və UNESCO üzrə Milli Komissiyanın ikinci katibi Nahid Ömərov daxildir.

Sessiyanın gündəliyinə Hökumətlərarası Komitənin cari və gələcək fəaliyyəti ilə bağlı məsələlər, UNESCO-nun Qeyri-maddi irsin qorunması üzrə reprezentativ siyahısına və Təcili qorunmaya ehtiyacı olan qeyri-maddi mədəni irs siyahısına salınması nəzərdə tutulan nominasiyaların müzakirəsi, milli hesabatların qəbul edilməsi və digər məsələlər daxildir.

Sessiyanın açılışında çıxış edən R.Həsənov cari ilin iyun ayında Azərbaycanın sözügedən komitənin üzvü seçildiyini qeyd edərək seçkilər zamanı ölkəmizə dəstək verən üzv ölkələrə təşəkkürünü bildirib. Diqqətə çatdırılıb ki, Azərbaycan 2008-2014-cü illərdə sözügedən komitənin üzvü olub və 2013-cü ildə UNESCO-nun Qeyri-maddi mədəni irsin qorunması üzrə Hökumətlərarası Komitəsinin 8-ci sessiyasına müvəffəqiyyətlə ev sahibliyi edib. Nazir müavini universal mədəni dəyərlərin qorunmasına daim səy göstərən Azərbaycanın qeyri-maddi mədəni irslə bağlı 2003-cü il konvensiyasının səmərəli həyata keçirilməsində maraqlı olduğunu və 2018-2022-ci il Komitə üzvlüyü dövründə də konvensiyanın səmərəli həyata keçirilməsi üçün üzv ölkələrlə konstruktiv əməkdaşlıq edəcəyini vurğulayıb.

Sessiyanın üçüncü iş günü ölkəmiz üçün xüsusilə əlamətdar olub, zəngin mədəni irsimizlə bağlı daha iki nümunə UNESCO-nun müvafiq siyahılarına salınıb.

davamı səh. 2-də




## Azərbaycan rəssamlığına şöhrət qazandırmış sənətkar

### Tahir Salahovun 90 yaşı tamam olur

Prezident İlham Əliyev noyabrın 28-də görkəmli rəssam Tahir Teymur oğlu Salahovun Azərbaycan təsviri sənətinin inkişafında xüsusi xidmətlərinə görə 1-ci dərəcəli "Əmək" ordeni ilə təltif edilməsi haqqında sərəncam imzalayıb.

Noyabrın 29-da dünya şöhrətli fırça ustasının 90 yaşı tamam olur.

Dövlət başçısı yubiley münasibətilə sənətkara təbrik məktubu ünvanlayıb. Məktubda Tahir Salahovun müasir rəssamlıq məktəbinin görkəmli nümayəndəsi olaraq uzunmüddətli səmərəli və bənzərsiz yaradıcılığı ilə zəngin mədəniyyət salnaməmizə yeni səhifələr yazdığı, milli sənət xəzinəmizin qızıl fonduna özünə həmişəlik layiqli yer tutan əsərləri ilə Azərbaycan təsviri sənətinə geniş şöhrət qazandırdığı vurğulanır.

davamı səh. 2-də

## Respublika müşavirəsində "Bölgələrdən bölgələrə" festivalına yekun vurulacaq

Mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin 2018-ci ilin noyabr ayında şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə əsasən, Azərbaycan Respublikasının mədəniyyət naziri Əbülfəs Qarayev 2018-ci il noyabrın 30-da Cəlilabad şəhərində Lənkəran şəhəri, Astara, Lerik, Masallı, Cəlilabad və Yardımlı rayonlarından sakinlərlə görüşəcək.

Vətəndaşların qəbulundan sonra Mədəniyyət Nazirliyinin regional idarələrinin fəaliyyətinə həsr olunmuş respublika müşavirəsinin və "Bölgələrdən bölgələrə" yaradıcılıq festivalının yekun tədbirinin keçirilməsi nəzərdə tutulub.

Mədəniyyət Nazirliyinin təşəbbüsü ilə cari ilin iyun-avqust aylarında ərzində keçirilən, Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinə həsr olunmuş "Bölgələrdən bölgələrə" yaradıcılıq festivalı zəngin mədəni irsimizin təbliği, regionların mədəni potensialının nümayiş etdirilməsi, bölgələrarası mübadilənin genişləndirilməsi məqsədini daşıyır.



Yerli icra orqanlarının təşkilati dəstəyi ilə keçirilmiş festival bölgələrdə əhalinin və ölkəmizə gələn xarici qonaqların böyük marağına səbəb olub.

"Bölgələrdən bölgələrə" festivalının yekun tədbirində folklor və rəqs kollektivlərinin, incəsənət ustalarının konsert proqramı, xalq sənətkarlığı nümunələrinin, rəssamların əl işlərinin sərgi-yarmarkasının təşkili nəzərdə tutulur.

Bu ərəfədə regional mədəniyyət idarələrinin təşkilatçılığı ilə "Bölgələrdən bölgələrə" adlı konsert proqramları keçirilib.

davamı səh. 4-də




## "Bakı incəsənət marşrutuna necə çevrilir?"

### "İndependent" nəşrində məqalə dərc olunub

Böyük Britaniyanın nüfuzlu "İndependent" nəşrində "Bakı incəsənət marşrutuna necə çevrilir?" başlıqlı yazı dərc edilib. Müəllif Stephanie d'Arc Taylor məqalədə bu yaxınlarda (6-11 noyabr) Bakıda YARAT Müasir İncəsənət Məkanının layihəsi üzrə ikinci dəfə keçirilən M.A.P. (musiqi, incəsənət, performans) Beynəlxalq teatr festivalından bəhs edir.

"M.A.P. festivalı bu şəhəri dünya incəsənət xəritəsində öz yerini tapmağa kömək edir", - deyə Stephanie d'Arc Taylor vurğulayır. Festivalın səhnə əsərlərindən biri – A.Çexovun "Vanya dayı" pyesi əsasında Kioto (Yaponiya) "Chiten" teatrının hazırladığı və yapon dilində (ingilis və Azərbaycan dilində titrlərlə) təqdim olunan tamaşa haqqında təəssüratını bölüşən məqalə müəllifi rus yazıçısının bu sözlərini diqqətə çatdırır: "İnsana ağıl və yaratmaq gücü bəxş edilmişdir ki, ona verilənləri artıra bilsin".

Müəllif vurğulayır ki, zəngin neft yataqları, xalçaları ilə tanınan Azərbaycan sərvətlərindən istifadə edərək dəyişməyə çalışır və paytaxt Bakı şəhərini incəsənət və memarlıq üzrə beynəlxalq mərkəzə çevirir. Qeyd olunur ki, mədəniyyətə dəstək sayəsində Sovet İttifaqının dağılmasından sonra böhran dövrü keçirmiş incəsənət canlanıb və bu, ölkəyə turistlərin cəlb edilməsinə də zəmin yaradıb.

davamı səh. 8-də

## Kino tariximizi gələcək nəsillərə çatdıracaq dəyərli mənbə

Noyabrın 28-də Nizami Kino Mərkəzində kino tariximizin yorulmaz tədqiqatçısı, Əməkdar incəsənət xadimi, Prezident təqaüdçüsü Aydın Kazımzadənin "Kino və zaman" kitabının təqdimat mərasimi keçirildi.

Tədbiri Mədəniyyət Nazirliyinin Kinematoqrafiya şöbəsinin əməkdaşı Almaz Sultanzadə açaraq bildirdi ki, "Azərbaycanfilm" kinostudiyasının 90 illiyinə həsr olunan kitab kinomuzun salnaməsini əks etdirən dəyərli nəşrdir. Kitabın ərsəyə gəlməsində Dövlət Film Fondunun əməkdaşları müəllifə yaxından kömək ediblər.

"Azərbaycanfilm" kinostudiyasının direktoru, Əməkdar incəsənət xadimi Müşfiq Hətəmov kitabın nəşri ilə bağlı müəllifi təbrik etdi, layihənin reallaşmasında əməyi olan hər kəsə minnətdarlığını bildirdi.

Xalq artisti Həmidə Ömərova Aydın Kazımzadənin kino sahəsində xidmətlərindən söz açdı və onu cəfakeş tədqiqatçı kimi səciyyələndirdi. Bildirdi ki, tədqiqatçı Azərbaycanın kino salnaməsinə dərindən bələd olmaqla yanaşı, filmlərimizə öz nöqteyi-nəzərindən baxır.

Kitabın elmi redaktoru, nazirliyin Kinematoqrafiya şöbəsinin sektor müdiri Cəmil Quliyev diqqətə çatdırdı ki, Aydın Kazımzadə kinematoqrafiya sahəsinə hər zaman elmi prizmadan yanaşır: "Müəllifin gərgin əməyinin zəhməti olan kitab 120 illik kino tariximizin şanlı salnaməsini özündə cəm edib. "Kino və zaman" kitabı bu tarixi gələcək nəsillərə ötürən qiymətli körpüdür. Zamana qalib gələn kinomuzda çalışan çoxsaylı sənətkarların əməyi bu kitabda əks olunub".



davamı səh. 2-də

## Bakıda Türk filmləri həftəsi keçirildi

Noyabrın 23-dən 27-dək Bakıda, Nizami Kino Mərkəzində IV Türk filmləri həftəsi keçirildi. Layihə Türkiyənin Mədəniyyət və Turizm Nazirliyinin dəstəyi, Yerli Düşüncə Dərnəyinin təşkilatçılığı ilə reallaşdı.

Film həftəsinə həsr edilmiş mətbuat konfransında layihənin baş koordinatoru Öner Kılıç bildirdi ki, müasir dövrdə kino əlaqənin, tanışlığın ən təsirli vasitələrindən biridir. Qeyd etdi ki, dördüncü dəfə gerçəkləşən bu tədbir vasitəsilə biz birliyimizi, həmrəyliyimizi nümayiş etdiririk. Bu layihənin digər türk respublikalarını da əhatə etdiyini deyən Ö.Kılıç eyni zamanda, türk dünyası ölkələrinin filmlərinin qarşılıqlı olaraq nümayiş olunmasının vacibliyini vurğuladı. O, azərbaycanlı kinosevərlərə Türkiyədə yeni istehsal edilmiş filmləri gətirdiklərini dedi.

Səfər əsnasında "Azərbaycanfilm" kinostudiyasının direktoru Müşfiq Hətəmovla görüşdüklərini vurğulayan koordinator azərbaycanlı gənc rejissor və ssenaristlərlə də bir araya gələcəklərini diqqətə çatdırdı. O, həmçinin bir neçə ildir üzərində çalışdığı "Dədə Qorqud" ssenarisi ilə bağlı fikirlərini də bölüşdü. Bildirdi ki, ortaq türk mədəniyyətinin nümunəsi olacaq ssenari üzərində işlər davam edir və film Azərbaycan, Qazaxıstan və Türkiyənin birgə işi olacaq.

davamı səh. 5-də

## Rənglərin qəriblik nəğməsi

Taleyin amansız hökmü ilə dünyanın müxtəlif guşələrinə səpələnmiş azərbaycanlılar arasında rəssamlar da az olmayıb.

Sovet dönəmində vətənlə əlaqənin yoxluğu xalqımızın həmin yaradıcı soydaşlarımızdan xəbərsiz olmalarını şərtləndirib. Yaradıcılığı barədə uzun illər məlumatsız olduğumuz belə məşhur rəssamlardan biri də naxçıvanlı İbrahim Səfi idi.

səh. 7

Qara Qarayevin musiqisi Tokioda səslənib



səh. 3

Hökumətlərarası əməkdaşlıq proqramı mədəni əlaqələrə əlavə zəmin yaradacaq

səh. 2



Rasim Ocaqovun 85 illiyi Şəkidə qeyd edilib

səh. 4

# Bülbül adına məktəbin müəllimlərinə fəxri ad verilib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin noyabrın 26-da imzaladığı sərəncama əsasən, Bülbül adına Orta İxtisas Musiqi Məktəbinin 90 illik yubileyi münasibətilə və Azərbaycanda görə musiqi təhsilinin inkişafında uzunmüddətli səmərəli fəaliyyətlərinə məktəbin üç əməkdaşına – Valentina Kraynova, Ülviyyə Manafova və Səadət Səttarovaya "Əməkdar müəllim" fəxri adı verilib.

# Şərqşünaslıq İnstitutunun əməkdaşları təltif olunub

Prezident İlham Əliyev noyabrın 27-də Azərbaycan Milli Elmlər Akademiyası akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutunun əməkdaşlarının təltif edilməsi haqqında sərəncamlar imzalayıb.

Ölkəmizdə şərqşünaslıq elminin inkişafında xidmətlərinə görə İnqilab Əlibəyov "Şöhrət" ordeni ilə, Aydın Abıyev, Vilayət Cəfərov və Esmeralda Həsənova "Tərəqqi" medalı ilə təltif olunublar.

Şərqşünaslıq elminin inkişafında xidmətlərinə görə Əkrəm Rəhimli "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" ilə təltif edilib.

Azərbaycan tarixinin tədqiqi sahəsində uzunmüddətli səmərəli fəaliyyətinə görə Şərqşünaslıq İnstitutunun baş elmi işçi, professor Solmaz Rüstəmova-Tohidiyə "Əməkdar elm xadimi" fəxri adı verilib.

# Azərbaycan rəssamlığına şöhrət qazandırmış sənətkar

*əvvəli səh. 1-də*



"Sərt üslub"un banilərindən biri kimi yaratdığınız sənət nümunələrində insan taleyi vasitəsilə dünyaya, həyata baxışınız və fəlsəfi düşüncələriniz rənglərin ən incə çalarları ilə dolğun ifadəsini tapmışdır. Azərbaycan incəsənətinin çoxəsrlik ənənələrini Avropa boyakarlıq məktəbinin nailiyyətləri ilə birləşdirən, mövzu, forma, janr əlvanlığı və estetik kamilliyi ilə seçilən ecazkar rəsmləriniz ülvi bəşəri dəyərlər və ali məqsədlər naminə humanist fikirlər təlqin edir", - deyə məktubda qeyd edilir.

Diqqətə çatdırılır ki, görkəmli rəssamın yaradıcılığı və ictimai fəaliyyəti xalqımız və dövlətimiz tərəfindən yüksək qiymətləndirilib, sənətkar Azərbaycan Respublikasının ən ali təltiflərinə – 1998-ci ildə "İstiqlal" və 2008-ci ildə "Heydər Əliyev" ordenlərinə, 2015-ci ildə Heydər Əliyev mükafatına layiq görülüb.

Vurğulanır ki, görkəmli rəssamın dünyanın mötəbər muzeylərini, məşhur qalereyalarını bəzəyən və şəxsi kolleksiyalarda saxlanılan əsərlərinin, hər biri hadisəyə çevrilən fərdi sərgilərinin Azərbaycan mədəniyyətinin ölkə hüdudlarından uzaqlarda təbliğində böyük rolu var.

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva da yubiley münasibətilə sənətkarı təbrik edib. Təbrik məktubunda Tahir Salahov "Böyük ustad, planetar miqyaslı rəssam, gözəl pedaqoq və ictimai xadim" kimi xarakterizə olunur. "Ola bilsin, bunu deyənlər haqlıdır ki, həqiqi sənətkar yaşadığı dünyanı sevməlidir. Sizin yaradıcılıq dünyanız parlaq və rəngarəngdir. Onun fərqləndirici cəhəti doğma ölkənizə - Azərbaycana həqiqi, səmimi vətənpərvərlik, dərin və ülvi sevgidir", - deyə məktubda vurğulanır.

# Kino tariximizi gələcək nəsillərə çatdıracaq dəyərli mənbə

## "Kino və zaman" kitabının təqdimatı

*əvvəli səh. 1-də*

Əməkdar incəsənət xadimi Ayaz Salayev qeyd etdi ki, kinomuzun tarixindən söz açılanda ilk növbədə Aydın Kazımzadənin araşdırmaları yada düşür. Onun kitabları kinematoqrafiyamızın gerçək tarixidir.




Xalq artisti, kinorejissor Oqtay Mirqasımov da müəllifi təbrik etdi. Vurğuladı ki, kinematoqrafiyanı itirən ölkə ümumi mədəniyyətini itirir: "Aydın Kazımzadə kino irsimizin qorunması üçün ömrü boyu xidmət edən insanlardan biridir. Bu kitab bütün zamanlara sübutdur ki, Azərbaycan kinosu yaşayır və onun fəxr ediləsi tarixi var".

Xalq rəssamları Arif Hüseynov, Rafiz İsmayılov çıxışlarında kitabı Azərbaycan kinosu üçün əvəzsiz bir töhfə kimi qiymətləndirdilər.

Aydın Kazımzadə tədbirə qatılan hər kəsə təşəkkürünü bildirdi. Vurğuladı ki, kitab "Azərbaycan kinosunun 120 illiyinin qeyd edilməsi haqqında" dövlət başçısının müvafiq sərəncamının icrasını təmin etmək məqsədilə Mədəniyyət Nazirliyi tərəfindən hazırlanmış tədbirlər planına uyğun olaraq çap edilib. O, yazdığı bütün kitabları kinoya olan sevgisindən ərsəyə gətirdiyini dedi: "1963-cü ildən jurnalist kimi kino sahəsinə gəldim, məqalələr yazdım, tədqiqatlara başladım. Kinoda çalışan hər kəs mənə əzizdir. Əgər bu sevgi olmasaydı, kitablar da yaranmazdı. Bütün kitablarımın hazırlanmasında mənə yardım edən Dövlət Film Fonduna təşəkkür edirəm. Fəaliyyətimə göstərdiyi diqqətə görə Mədəniyyət Nazirliyinə minnətdarlığımı bildirirəm".

"Şərq-Qərb" nəşriyyatında çap edilən kitab beynəlxalq mükafatlara layiq görülən filmlərə və "Azərbaycanfilm" kinostudiyasının yaradıcılıq yoluna həsr olunub.

Sonda müəllif kitabı imzalayaraq tədbir iştirakçılarına hədiyyə etdi.

**Lalə AZƏRİ**

# Hökumətlərarası proqram mədəni əlaqələrə əlavə zəmin yaradacaq

Mədəniyyət naziri Əbülfəs Qarayev Türkmənistanın Azərbaycandakı səfiri Mekan İşanquliyev ilə görüşüb.



Görüşdə iki ölkə arasında mədəniyyət sahəsində əlaqələr və əməkdaşlığın gələcək perspektivləri, həmçinin həyata keçirilə biləcək layihələr barədə fikir mübadiləsi aparılıb.

Azərbaycan Respublikası Prezidentinin Türkmənistana rəsmi səfəri çərçivəsində cari ilin 22 noyabr tarixində imzalanmış "Azərbaycan Respublikası Hökuməti ilə Türkmənistan Respublikası Hökuməti arasında 2019-2021-ci illər üçün elm, təhsil, mədəniyyət və incəsənət sahəsində Əməkdaşlıq Proqramı"nın əhəmiyyəti qeyd edilərək, bunun iki ölkə arasında əlaqələri daha da möhkəmləndirəcəyi bildirilib.

Görüşdə Azərbaycanın Türkmənistanla UNESCO və digər beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığının səviyyəsindən məmnunluq ifadə olunub.

Xatırladaq ki, Prezident İlham Əliyevin Türkmənistana rəsmi səfəri zamanı iki ölkənin çoxsahəli əməkdaşlığına dair 20 sənəd, həmçinin prezidentlər tərəfindən Birgə bəyanat imzalanıb.

Prezidentlər aparılan danışıqların və əldə olunan razılaşmaların əhəmiyyətini vurğulayaraq iki ölkənin ortaq mədəni irsə, tarixi keçmişə malik olduqlarını qeyd ediblər.

"Türkmənistan və Azərbaycan xalqları tarixən həmişə zəngin millətlər olub. Onların həmişə güclü ehtiyat potensialı olub və bu potensialdan həm öz xalqlarının, həm də qonşularının, regionun rifahı naminə istifadə ediblər. Sevindirici haldır ki, bu gün biz bunu müasir mərhələdə davam etdiririk", – deyə Qurbanqulu Berdiməhəmmədov bildirib. O, həmçinin iki ölkədə xalçaçılıq sənətinin inkişaf etdiyini diqqətə çatdıraraq bu sahədə birgə sərgi və konfransın keçirilməsinin önəmini vurğulayıb.

Prezident İlham Əliyev qeyd edib ki, iki ölkənin dostluq və qardaşlığının çoxəsrlik tarixi qarşılıqlı hörmət, qarşılıqlı etimad, qarşılıqlı dəstək, əməkdaşlıq tarixidir: "Biz xalqlarımızın ənənəvi qardaşlıq və dostluq tellərinin daha da möhkəmlənməsi üçün çox iş görürük. Bunu bizə tarix, xalqlarımızın tarixi, ümumi etnik kökləri diktə edir".

# Mədəni irsimizin UNESCO-da növbəti təntənəsi

*əvvəli səh. 1-də*

Noyabrın 28-də günün birinci yarısında ölkəmizin təqdim etdiyi "Yallı (Köçəri, Tənzərə), Naxçıvanın ənənəvi qrup rəqsləri" nominasiya faylı UNESCO-nun Təcili qorunmaya ehtiyacı olan qeyri-maddi mədəni irs siyahısına daxil edilib.

Bu xoş hadisə ilə bağlı Azərbaycan Respublikasının Mədəniyyət və Xarici İşlər nazirliklərinin birgə bəyanatı yayılıb. Bəyanatda bildirilir ki, sözügedən nominasiya sənədi Mədəniyyət Nazirliyi, Xarici İşlər Nazirliyi və Azərbaycan Respublikasının UNESCO yanında daimi nümayəndəliyinin birgə əməkdaşlığı ilə təqdim edilib. Namizədlik sənədinin məhz Naxçıvan adı ilə təqdim edilməsində əsas məqsəd ölkəmizin qədim və tarixi regionu olan Naxçıvanda yaşayan əhalinin ənənəvi mədəniyyətinə və xalq yaradıcılığına dünya miqyasında işıq salmaq və onu tanıtmaq, eyni zamanda bu ənənələri UNESCO səviyyəsində qorumaqdır.

Bəyanatda qeyd olunur ki, Ermənistanın, ölkəmizin digər mədəni irs namizədləri ilə bağlı olduğu kimi, "Yallı (Köçəri, Tənzərə), Naxçıvanın ənənəvi qrup rəqsləri" nominasiyasına qarşı təxribat xarakterli cəhdlərinin də qarşısı alınıb, Azərbaycan Respublikasının aidiyyəti dövlət orqanları tərəfindən sessiyadan öncə müvafiq iş aparılıb və ölkəmizin nümayəndə heyəti tərəfindən sessiya zamanı Ermənistan tərəfinə layiqli cavab verilib.

Günün ikinci yarısında isə Azərbaycan, Türkiyə və Qazaxıstanın birgə təqdim etdiyi "Dədə Qorqud irsi. Dastan mədəniyyəti, xalq nağılları və musiqisi" nominasiya faylının çoxmillətli mədəniyyət nümunəsi kimi UNESCO-nun Qeyri-maddi mədəni irs üzrə reprezentativ siyahısına salınması barədə qərar qəbul edilib.

Azərbaycan Respublikasının Mədəniyyət və Xarici İşlər nazirliklərinin bu barədə birgə bəyanatında diqqətə çatdırılır ki, "Dədə Qorqud irsi: Dastan mədəniyyəti, xalq nağılları və musiqisi" adlı çoxmillətli mədəniyyət nümunəsi Azərbaycanda, Türkiyədə və Qazaxıstanda birlik, bərabərlik və müxtəlifliyi, həmçinin xalqlarımızın ailə dəyərlərini, qadının cəmiyyətdə rolu, qonaqpərvərlik və ədalət prinsiplərini təbliğ etdiyini ifadə edir.

Bildirilir ki, Ermənistan nümayəndəsinin bu dəfə də "Dədə Qorqud irsi. Dastan mədəniyyəti, xalq nağılları və musiqisi" adlı çoxmillətli mədəniyyət nümunəsinin Azərbaycana dair hissəsinə qarşı əsassız çıxış etməsi heç bir nəticə verməyib. Ermənistan tərəfinin qeyri-konstruktiv və yersiz mövqeyinin yolverilməz olduğunu bir daha diqqətə çatdıran nümayəndə heyətimiz Azərbaycanın bu çoxmillətli nominasiyanın tərəfi olmaqla regional əməkdaşlığa və ortaq mirasa sahib olan ölkələrlə mədəniyyətin bölüşülməsi faktoruna önəm verdiyini və bununla da UNESCO-nun xoşməramlı prinsiplərinə sadiqliyini nümayiş etdirdiyini vurğulayıb.

Mədəniyyət və Xarici İşlər nazirliklərinin hər iki bəyanatında həmçinin xüsusi qeyd olunur ki, UNESCO ilə əməkdaşlığın inkişafında və mədəni irsimizin qorunması və dünya miqyasında təbliğində müstəsna rolu olan Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, UNESCO-nun və İSESCO-nun xoşməramlı səfiri xanım Mehriban Əliyevanın dəstəyi ilə sözügedən iki nominasiya faylı ilə yanaşı, ötən illərdə qeyri-maddi mədəni irsimizin nümunələri – kamança hazırlanması və ifaçılıq sənəti, dolma hazırlama və paylaşma ənənəsi, Azərbaycan muğam ifaçılığı, lavaş bişirmə və paylaşma ənənəsi, Lahıc misgərlik sənəti, aşıq sənəti, Novruz bayramı, xalça sənəti, tar ifaçılığı, kəlağayı sənəti UNESCO-nun Qeyri-maddi mədəni irs üzrə reprezentativ siyahısında, çövkən – ənənəvi Qarabağ atüstü oyunu isə UNESCO-nun Təcili qorunmaya ehtiyacı olan qeyri-maddi mədəni irs siyahısına daxil edilib. Beləliklə, hazırda UNESCO-nun sözügedən iki siyahısında Azərbaycan xalqının zəngin mədəni irsi ilə bağlı ümumilikdə 13 nümunə yer alıb.






* * *

Hökumətlərarası Komitənin 13-cü sessiyasında həmçinin 2013-cü ildə UNESCO-nun Təcili qorunmaya ehtiyacı olan qeyri-maddi mədəni irs siyahısına daxil edilmiş Azərbaycanın "Çövkən - ənənəvi Qarabağ atüstü oyun ənənələri"nə dair beşillik hesabat qəbul edilib.

Hesabatda çövkən atüstü oyun ənənələrinin inkişafı ilə bağlı ölkəmizdə həyata keçirilən tədbirlər, həmçinin Ermənistan tərəfindən Azərbaycanın Qarabağ regionunun işğalı nəticəsində bu oyun ənənələrinin həyata keçirilməsinin mümkünsüzlüyü əksini tapıb, çövkən oyununun Qarabağdan – tarixi yurdundan zorla qovulmuş azərbaycanlı əhali tərəfindən müharibənin və təcavüzün acı nəticələrinə baxmayaraq, yaşatmağa çalışdıqları və bu istiqamətdə dövlətin icmaları dəstəklədiyi göstərilib.

İclasda Ermənistan nümayəndə heyəti "ənənə"sinə sadiq qalaraq Azərbaycana qarşı çıxış edərək hesabatın geri qaytarılmasını tələb edib. Məsələ ilə bağlı geniş müzakirə aparılıb və Ermənistanın bu cəhdi də iflasa uğrayıb. Ermənistanın qərarla bağlı təkliflərinin heç biri komitə tərəfindən dəstəklənməyib.

Azərbaycanın UNESCO yanında daimi nümayəndəsi Anar Kərimov qeyd edib ki, hesabat beynəlxalq hüququn, BMT Nizamnaməsinin və UNESCO-nun müvafiq konvensiyasına uyğun olaraq Azərbaycan Mədəniyyət Nazirliyi tərəfindən hazırlanıb və sənəddə ölkəmizdə çövkən oyununu həyata keçirən bütün icmaların fikirləri və müsahibələri əksini tapıb. Səfir komitə üzvlərinin konstruktiv mövqelərinə görə təşəkkürünü bildirərək Ermənistan nümayəndəsini komitə üzvlüyündən öz siyasi məqsədləri üçün istifadə etməməyə çağırıb.

* * *

Qeyd edək ki, sessiyada baxılmaq üçün UNESCO-nun Təcili qorunmaya ehtiyacı olan qeyri-maddi mədəni irs siyahısına 7 fayl, Qeyri-maddi mədəni irs üzrə reprezentativ siyahısına 40 fayl, yaxşı mühafizə praktikası üzrə 2 fayl təqdim edilib.

Noyabrın 28-də Təcili qorunmaya ehtiyacı olan irs siyahısı üzrə nominasiyaların hamısı qəbul edilib. Onların arasında Suriyanın təqdim etdiyi kölgə kukla oyunu, Misirin təqdim etdiyi qədim marionet teatr ənənəsi və başqa nümunələr var.

Həmçinin gün ərzində qeyri-maddi mədəni irs üzrə 10 nominasiya faylı qəbul edilib, qalanlarının müzakirəsi davam etdiriləcək.

Sessiyada Koreya Xalq Demokratik Respublikası və Koreya Respublikasının birgə təqdim etdiyi "Ənənəvi Koreya güləşi" faylı UNESCO-nun Qeyri-maddi mədəni irs üzrə reprezentativ siyahısına daxil edilməsi xüsusilə diqqət çəkib. UNESCO-nun baş direktoru Odri Azuley bəyan edib ki, iki Koreyanın belə bir təşəbbüsdə razılığa gəlməsi misli görünməmiş haldır. Bu birgə imza iki ölkə arasında barışıq yolunda çox simvolik addımdır.

# Təbrizdən mükafatla, Həmədandan diplomla

Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrının aktyoru, Əməkdar artist Şövqi Hüseynov İranın Təbriz şəhərində keçirilən "Əlif" beynəlxalq teatr festivalında "Ən yaxşı kişi" rolu nominasiyasında birinci olub.

Aktyor festivalda "Dəlinin qeydləri" monotamaşasında çıxış edib. "Dəlinin qeydləri" gələn il fevral ayında İranda keçiriləcək növbəti "Fəcr" Beynəlxalq Festivalına dəvət alıb.

* * *

Lənkəran Dövlət Dram Teatrı isə noyabrın 20-dən 25-dək İranın Həmədan şəhərində keçirilən 25-ci Beynəlxalq Uşaq və Gənclər Teatr Festivalında iştirak edib.

Kollektiv festivalda şair, yazıçı Əjdər Olun "Meşəbəyinin dostları" musiqili nağıl-tamaşasını təqdim edib. Tamaşanın quruluşçu rejissoru Emil Əskərov, quruluşçu rəssamı Tərlan Sadıqov, musiqi tərtibatçısı Fərahim Fərəcovdur.

Festivalın bağlanış mərasimində Lənkəran teatrının truppası diplom və xatirə hədiyyəsi ilə mükafatlandırılıb.

# “Bizi yurdumuza qaytarın”

### Sərgi-konfransda işğal altındakı rayonlarımızın mədəni irsinə vurulan ziyandan söhbət açılıb, xilas edilmiş muzey eksponatları nümayiş olunub

Noyabrın 27-də Muzey Mərkəzinin sərgi qalereyasında “Bizi yurdumuza qaytarın” adlı sərgi-konfrans keçirildi. Tədbir Mədəniyyət Nazirliyi, Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası, Azərbaycan Qaçqın və Məcburi Köçkün Gənclər Təşkilatı, İstiqlal Muzeyi və Muzey Mərkəzinin təşkilati dəstəyi ilə reallaşdı.

Tədbirdə çıxış edən mədəniyyət nazirinin müavini Rafiq Bayramov Ermənistanın işğalı nəticəsində ölkəmizə dəyən maddi və mənəvi ziyan haqqında danışdı. Qeyd etdi ki, belə bir sərgi ilk dəfə nümayiş olunur. İşğala məruz qalmış şəhər və rayonlarımızın muzeylərinin bir çoxu çətin şəraitə rəğmən Bakıda və ölkəmizin müxtəlif rayonlarında öz fəaliyyətlərini davam etdirirlər. Bildirildi ki, Ermənistan tərəfindən 20 faiz torpaqları işğal olunub, 1 milyondan artıq vətəndaşımız öz doğma torpaqlarından didərgin düşüb. İşğal olunmuş rayon və şəhərlərimizdə 11 dünya əhəmiyyətli, 223 ölkə əhəmiyyətli, 453 yerli əhəmiyyətli tarix və mədəniyyət abidəsi, 100 mindən çox eksponatın saxlanıldığı 22 muzey, 927 kitabxana, 808 klub müəssisəsi, 4 rəsm qalereyası, 4 teatr müəssisəsi və digər mədəniyyət obyektləri vardı. Bütün bu mədəni sərvətlər dağıdılaraq talan edilib.





Əvvəlcə Azərbaycan Respublikasının Dövlət himni səsləndirildi, Vətən uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad olundu.

Qaçqın və Məcburi Köçkün Gənclər Təşkilatının sədri Vüqar Qədirov çıxış edərək sərgi-konfrans haqqında məlumat verdi. Bildirdi ki, erməni işğalı nəticəsində xeyli sayda muzey eksponatlarımız düşmən tərəfindən talan edilib, dağıdılıb. Həmin eksponatların kiçik bir qismini düşməndən xilas etmək mümkün olub. Bu nümunələrin bugünkü sərgidə nümayiş etdirilməsinin məqsədi ölkəmizin məruz qaldığı işğala biganə yanaşan beynəlxalq təşkilatlara cansız əşyaların dili ilə yaşadığımız reallığı çatdırmaqdır.

Nazir müavini vurğuladı ki, erməni təcavüzünün acı nəticələri ilə təkcə vətəndaşlarımız deyil, tarixi mədəniyyət abidələrimiz də üzləşib. Dahi bəstəkar Üzeyir Hacıbəylinin, görkəmli müğənni Bülbülün və Natəvanın büstləri də vandalizmə məruz qalıb. İndi həmin büstlər – “Güllələnmiş heykəllər” adı ilə Milli İncəsənət Muzeyində saxlanılır.

Rafiq Bayramov qeyd etdi ki, bütün bunlara baxmayaraq Azərbaycan xalqı haqq və ədalətin zəfər çalacağına inanır: “Biz inanırıq ki, ölkə başçısı İlham Əliyevin rəhbərliyi altında torpaqlarımız işğaldan azad olunacaq, qaçqınlarımız öz doğma yurd yerlərinə qayıdacaq”.

Daha sonra çıxış edən Əməkdar incəsənət xadimi Fəxriyyə Xələfova, İşğal Olunmuş Ərazilərdəki Tarix və Mədəniyyət Abidələrini Müdafiə Təşkilatının sədri Faiq İsmayılov, Laçın Rayon Tarix-Diyarşünaslıq Muzeyinin direktoru Türkanə Nuruyeva və başqaları tədbirin əhəmiyyətindən danışdılar. Ermənistanın işğalçılıq siyasətinə son qoyulması, bu təcavüzə beynəlxalq hüquqi qiymətin verilməsinin vacibliyi vurğulandı.

Tədbir iştirakçıları daha sonra sərgi ilə tanış oldular. “Bizi yurdumuza qaytarın” adlı sərgidə Kəlbəcər, Xocalı, Ağdam, Laçın, Cəbrayıl, Füzuli, Qubadlı, Zəngilan və Şuşa tarix-diyarşünaslıq muzeylərinin fondlarına məxsus eksponatlar nümayiş olunur.

**FARİZ**

# Qara Qarayevin musiqisi Tokioda səslənib



Görkəmli Azərbaycan bəstəkarı, alim-pedaqoq, SSRİ Xalq artisti, Sosialist Əməyi Qəhrəmanı, akademik Qara Qarayevin 100 illiyi haqqında Azərbaycan Prezidentinin sərəncamına əsasən ölkəmizin hüdudlarından kənarda da tədbirlər təşkil olunur. Yubileyə həsr olunmuş növbəti xatirə konserti noyabrın 25-də Yaponiyanın paytaxtı Tokioda keçirilib.

“Dojin-Kyokay” zalında keçirilən konsertin təşkilatçısı, Yaponiyada fəaliyyət göstərən “Beynəlxalq musiqi evi”nin rəhbəri, pianoçu Gülnarə Səfərova çıxış edərək tədbir iştirakçılarını salamlayıb. Bildirib ki, konsertin təşkilində məqsəd yapon musiqisevərləri zəngin Azərbaycan musiqisi və böyük bəstəkarımız Qara Qarayevin əsərləri haqqında məlumatlandırmaqdır.

Konsertin təşkilinə göstərilən köməyə görə Azərbaycan-Yaponiya Dostluq Mərkəzinə, “WorldInvestors TV” internet televiziyasına minnətdarlığını bildirən G.Səfərova əlavə edib ki, XX əsrin əvvəllərində inkişafa başlayan Azərbaycan klassik musiqisi əsrin ortalarında artıq Avropa ölkələrinədək yayılıb. Bu işdə dahi Azərbaycan bəstəkarı Üzeyir Hacıbəylinin yetirməsi Qara Qarayevin böyük rolu olub. Qeyd edib ki, Qara Qarayevin əsərlərinin Avropada çox geniş tanınmasına baxmayaraq, Yaponiyada onun yaradıcılığı haqqında məlumatlar azdır. Bunu nəzərə alaraq “Beynəlxalq musiqi evi” görkəmli bəstəkarın 100 illiyinə həsr olunan xatirə konserti təşkil edib. Yapon və rus musiqiçiləri də layihəni dəstəkləyərək konsertdə çıxış etməyə razılıq veriblər. Diqqətə çatdırılıb ki, Qara Qarayevin konsertin proqramına salınan əsərləri Yaponiyada ilk dəfə səslənəcək.

Konsert Qara Qarayevin rus şairi Aleksandr Puşkinin sözlərinə bəstələdiyi və rus vokalçı Valentina Pançenkonun Gülnarə Səfərovanın müşayiəti ilə ifa etdiyi “Gürcüstan təpələrində” və “Mən sizi sevirdim” romansları ilə başlayıb. Sonra yapon skripkaçı Çie Savadanın və Gülnarə Səfərovanın ifalarında səslənən “Skripka və fortepiano üçün sonata”, fleytaçı Daysuke Azumanın ifa etdiyi prelüdlər tamaşaçıların böyük marağına səbəb olub. Yapon balerina Yuka Yatani isə bəstəkarın “Yeddi gözəl” baletindən Ayişənin rəqsini və “Vals”ı ifa edib.

İki saata yaxın davam edən konsertdə “Beynəlxalq musiqi evi”nin şagirdləri Yuri Usuri və Himari Takakinin Qara Qarayevin uşaqlar üçün bəstələdiyi “Düşüncə”, “Fırtına”, “Hekayə”, “Şən oyun” pyesləri də tamaşaçılar tərəfindən alqışlarla qarşılanıb.

Konsertdə, həmçinin Qara Qarayevin müəllimi olmuş Dmitri Şostakoviçin və görkəmli Azərbaycan bəstəkarı və dirijoru Niyazinin əsərləri səslənib.

## Mədəniyyət nazirinin müavini Rumıniyada səfərdə olub

Azərbaycan Respublikası mədəniyyət nazirinin müavini Rafiq Bayramov Rumıniyaya səfəri çərçivəsində bu ölkənin mədəniyyət üzrə dövlət katibi Razvan Rab ilə görüş keçirib.

Nazir müavini Rumıniya Respublikasının yaranmasının 100 illiyinin qeyd edilməsi ilə bağlı qarşı tərəfə təbriklərini çatdırıb. Dövlət katibi də 2018-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinin qeyd olunmasının önəmini vurğulayıb, nazir müavinini təbrik edib.

Görüşdə ikitərəfli əməkdaşlıq prioritetlərinə dair müzakirələr aparılıb, regional və beynəlxalq təşkilatlarda tərəfdaşlıq və qarşılıqlı dəstəyin vacibliyi diqqətə çatdırılıb.

Səfər çərçivəsində Rafiq Bayramov həmçinin Azərbaycan Respublikasının əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayevin rəhbərlik etdiyi nümayəndə heyətinin tərkibində Azərbaycan və Rumıniya hökumətləri arasında ticarət-iqtisadi əlaqələr və elmi-texniki əməkdaşlıq üzrə Müştərək komissiyanın 5-ci iclasında iştirak edib. İclasda ölkələr arasında əməkdaşlıq protokolu imzalanıb.

Azərbaycan nümayəndə heyəti Buxarest şəhərindəki Heydər Əliyev xiyabanını ziyarət edib, ümummilli liderin büstü önünə gül dəstələri qoyub.

## Qara dəniz regionu üzrə mədəni əməkdaşlıq müzakirə edilib

Serbiyanın paytaxtı Belqradda Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının (QDİƏT) mədəniyyət üzrə İşçi qrupunun görüşü və üzv dövlətlərin Mədəniyyət nazirlərinin toplantısı keçirilib. Hazırda təşkilata Azərbaycan Respublikası sədrlik edir.

İşçi qrupun görüşündə Mədəniyyət Nazirliyini Beynəlxalq əməkdaşlıq və innovativ inkişaf şöbəsinin Beynəlxalq təşkilatlarla əməkdaşlıq sektorunun müdiri Nuriyyə Məmmədova təmsil edib. Görüşdə 2017-ci il üzrə qrupun koordinatoru olmuş Serbiyanın qiymətləndirmə məruzəsi dinlənilib. Bundan əlavə, QDİƏT-in mədəniyyət platformasının yaradılması, film festivallarında iştirak, üzv ölkələrin XX əsr klassik yazıçılarının əsərlərindən ibarət toplunun nəşri, “Qara Dəniz Gənc Simfonik Orkestri”nin təsis olunması, birgə televiziya verilişlərinin hazırlanması kimi gələcək layihələr müzakirə edilib.

Mədəniyyət nazirlərinin toplantısında Azərbaycanı ölkəmizin Serbiyadakı səfiri Eldar Həsənovun rəhbərliyi ilə nümayəndə heyəti təmsil edib. “Mədəniyyət diplomatiyası – daha yaxşı dünya üçün bir vasitə” adı altında keçirilən toplantıda Qara dəniz regionunda mədəni irsin müdafiəsi, mədəni əməkdaşlığın təşviqi, sabit və təhlükəsiz dünya üçün mədəniyyət diplomatiyasının formalaşdırılması kimi mövzular ətrafında müzakirələr aparılıb.

## Türk dünyası gənclərini bir araya gətirəcək layihə hazırlanır

Naxçıvanda Türk Şurası Gənc liderlərinin forumu keçirilib. Forumda çıxış edən Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti Günay Əfəndiyeva qurumun fəaliyyətindən söz açıb. O, həmçinin Naxçıvanın 2018-ci il üçün “İslam mədəniyyətinin paytaxtı” elan edilməsi münasibətilə keçirilən mərasimdə Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun himayəsində yaradılmış “Dədə Qorqud” kamera orkestrinin təqdimatını diqqətə çatdırıb.

Günay Əfəndiyeva bildirib ki, türk dünyası gənclərini bir araya toplamaq, onları bir-biriləri ilə daha da yaxından tanış etmək məqsədilə quruma üzv olan türkdilli ölkələrin gəncləri üçün düşərgə layihəsi üzərində işlər aparılır. Fondun rəhbəri vurğulayıb ki, sahib olduğumuz mədəniyyətin qorunması və dünyada təbliğində gənclərdən çox şey asılıdır.

## Xalq çalğı alətləri ifaçılarının müsabiqəsi

Azərbaycan Milli Konservatoriyasında (AMK) Xalq artisti, bəstəkar Hacı Xanməmmədovun 100 illiyinə həsr olunmuş “Xalq çalğı alətləri ifaçılarının I respublika müsabiqəsi” keçirilir.

Noyabrın 26-da tədbirin açılışında çıxış edən AMK-nın rektoru, Xalq artisti Siyavuş Kərimi ümidvar olduğunu bildirib ki, müsabiqə milli instrumental ifaçılığa öz müsbət töhfəsini verəcək. Rektor münsiflər heyətində çox dəyərli sənətkarların olduğunu diqqətə çatdırıb və iştirakçılara uğurlar arzulayıb.

Sonra püşkatma keçirilib, müsabiqəyə qatılan 57 iştirakçının çıxış sıraları müəyyən olunub.

Noyabrın 30-dək davam edəcək müsabiqə instrumental ifaçılıq (tar, kamança, qanun və milli nəfəs alətləri) üzrə 2 yaş qrupunu (16-19, 19-25) əhatə edir.

**Lalə AZƏRİ**

## Muzeylərdə xatirə tədbirləri

Abdulla Şaiqin mənzil-muzeyində Mikayıl Müşfiqin 110 illiyi münasibətilə noyabrın 27-də tədbir keçirilib.

Muzeyin direktoru Ülkər Talıbzadə, filologiya üzrə fəlsəfə doktoru Lütviyyə Əsgərzadə, Cəfər Cabbarlının ev-muzeyinin direktoru Qəmər Bağırova, sənətşünaslıq elmləri doktoru Abbasqulu Nəcəfzadə XX əsr Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, repressiya qurbanı Mikayıl Müşfiqin həyat və yaradıcılığından danışıblar.

54 saylı məktəbin şagirdləri Mikayıl Müşfiqin yaradıcılığı ilə bağlı bədii hissə təqdim ediblər.

* * *

Noyabrın 26-da isə Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin dəstəyi ilə M.S.Ordubadinin xatirə muzeyində görkəmli yazıçı, dramaturq, ssenarist İmran Qasımovun 100 illik yubileyinə həsr olunan gecə keçirilib.

Tədbirdə Əməkdar incəsənət xadimi, kinoşünas Aydın Kazımzadə, Xalq yazıçısı Çingiz Abdullayev, xalq artistləri Tariyel Qasımov, Natəvan Şeyxova, Lyudmila Duxovnaya, Əməkdar artist Şəfəq Əliyeva, teatrşünas Çingiz Ələsgərli və başqaları İmran Qasımov yaradıcılığı və onun Azərbaycan ədəbiyyatına, mədəniyyətinə verdiyi töhfələr haqqında söz açıblar. Bildirilib ki, İmran Qasımov nasir, dramaturq və ssenarist kimi zəngin ədəbi-bədii irsə malikdir. Onun ssenariləri üzrə çəkilən filmlərdə fədakar əmək, məhəbbət parlaq şəkildə əksini tapıb. “Onun böyük ürəyi”, “İnsan məskən salır” və s. filmlər bu gün də sevilərək baxılır.

# Heyrətamiz pianoçunun konserti

### Hər kəsə əldən itidir deməyin…

Nə vaxt idi ki, reklam çarxları onu bizə tanıtdırmağa, konsertinə dəvət etməyə çalışırdı. Dünyanın ən iti pianoçusu, 26 yaşlı macar gənci Peter Benze Bakıya gəlib konsert verəcəkdi...

Noyabrın 24-nə təyin edilmiş konsert uğurla gerçəkləşdi. Bakı Konqres Mərkəzindəki konsertdən bir neçə saat öncə isə Peter Benze jurnalistlərlə görüşdü, onları maraqlandıran suallara cavab verdi.

Biz də onu təkcə ifasından yox, həm də söhbətindən tanıdıq. Peter özünü macar estrada pianoçusu, bəstəkarı və saund-dizayneri, yəni səs-küy effektlərini yaradıb idarə edən şəxs kimi təqdim edir. Bütün bunlar bir tərəfə, Peter Benzenin adı 2012-ci ildə bir dilin (klavişin) təkrar basılması sürətinə (dəqiqədə 765 dəfə) görə “Ginnesin rekordlar kitabı”na düşüb.

Peter jurnalistlərin verə biləcəyi standart sualları qabaqlayaraq, söylədi ki, bu onun ölkəmizə ilk səfəridir, təəssüf ki, Bakı ilə tanışlıq imkanı olmayıb. Amma Azərbaycan milli mətbəxi ilə tanış olmağa fürsət tapıb və yeməklərimizi çox bəyənib. Yaradıcılıq münasibətlərinə gəlincə, vurğuladı ki, gələcəkdə böyük məmnuniyyətlə Azərbaycanda ustad dərsləri verməyə hazırdır: “Qastrol qrafikim çox sıxdır, sabah başqa ölkəyə uçmalıyam. Amma yaxın gələcəkdə belə bir təklif olarsa, ustad dərsi keçmək olar”.



“Bakıda öz iti əl rekordunuzu təzələmək fikriniz varmı” sualına pianoçu rekordçu kimi yox, peşəkar kimi cavab verdi: “Mən heç bu barədə düşünmürəm də. Mənim üçün ən vacib olan ifanın keyfiyyətidir”.

Mətbuat konfransının ən maraqlı məqamı isə konsert təşkilatçılarının Peterə Azərbaycan milli musiqi aləti tarı hədiyyə etməsi oldu. Salonda əyləşmiş hər kəs şahid oldu ki, Peter hədiyyədən daha çox, Əməkdar artist, tanınmış tarzən Şəhriyar İmanovun həmin aləti dilləndirməsinə heyran oldu.

* * *

Axşam isə heyran qalmaq növbəsi Peter Benzenin konsertinə gələnlərdə idi. 4 yaşından etibarən pianoda çalmağa başlamış, həm ifaçı, həm də bəstəkar olan, Bostonda dünyanın bir nömrəli müasir musiqi məktəbində (“Berklee College of Music”) təhsil alan gənc minlərlə dinləyicini öz sənət işığına toplaya bilir.

Belini bir qədər əyib royalın qarşısına keçən Peterin klassik ifaçılardan çox fərqli görünüşü belə böyük və ecazkar sənət qarşısında sədə etməsi təsiri bağışlayırdı. Bir-birini əvəzləyən ötən illərin hit melodiyaları mükəmməl ifanın sayəsində yüngül musiqi kimi deyil, artıq populyar ciddi musiqi nümunəsi səviyyəsində qavranılır. İnanmayanlar musiqiçinin şəxsi saytındakı sıx qastrol qrafiki ilə maraqlana, konsertlərindən görüntüləri seyr edə bilərlər. O, 2012-ci ildən başlayaraq dünya turunda onlarla ölkədə çıxış edib. Eyni zamanda televiziya, kino, teatr tamaşaları, sənədli filmlər üçün musiqi yazır, populyar müğənnilər üçün mahnı bəstələyir.

Bir sözlə, hələ Peter Benzenin çıxışını görməmisinizsə, kimsə üçün “əldən itidir” ifadəsini işlətməyin.

**Gülcahan MİRMƏMMƏD**

№87 (1577)
29 noyabr 2018
www.medeniyyet.az

## "70 il sənsiz"

Üzeyir Hacıbəylinin ev-muzeyində dahi bəstəkarın anım günü münasibətilə "70 il sənsiz" adlı tədbir keçirildi.

Tədbiri giriş sözü ilə muzeyin şöbə müdiri Gülnarə Ələsgərova açaraq bəstəkarın keşməkeşli ömür yolundan danışdı. Bildirdi ki, sovet hakimiyyətinin ilk illərində Üzeyir bəy təqiblərə məruz qalırdı. Bəstəkar həbs olunmaq təhlükəsi ilə də üzləşir. Üzeyir Hacıbəyliyə qarşı qaralama kampaniyasında ermənilər xüsusilə canfəşanlıq göstərirdilər. 1939-cu ildə Moskvada ittifaq miqyasında milli musiqi alətləri ifaçılarının müsabiqəsi keçirilir. Münsiflər heyətinə Üzeyir Hacıbəyli başçılıq edir. Müsabiqə zamanı bəstəkar bərk əsəbiləşir. Azərbaycanı təmsil edən ifaçılar arasında ermənilərin olmasına baxmayaraq, Bakı erməniləri Moskvaya məktub yazıb bildirirlər ki, Üzeyir Hacıbəyli millətçilik edir, qeyri millətlərin müsabiqədə iştirakına əngəllər törədir...

Professor Telman Ağdamski bəstəkarın bənzərsiz yaradıcılığından qısa bəhs etdi. Bildirdi ki, 1908-ci ildə tamaşaya qoyulan "Leyli və Məcnun" operası Şərqdə ilk opera olmaqla yanaşı, Azərbaycan musiqisi tarixində yeni səhifə açıb. Bundan sonra Ü.Hacıbəyli "Şeyx Sənan", "Rüstəm və Söhrab", "Şah Abbas və Xurşudbanu", "Əsli və Kərəm" muğam operalarını yazıb, bəstəkarın "Ər və arvad", "O olmasın, bu olsun", "Arşın mal alan" musiqili komediyaları tamaşaçılara təqdim edilib. Üzeyir Hacıbəylinin 1937-ci ildə tamaşaya qoyulan "Koroğlu" operası dövrünün ən yaxşı operalarından biri kimi qiymətləndirilib.

Bildirildi ki, Üzeyir Hacıbəyli həm də görkəmli maarifçi, kəsərli qələmə malik publisist idi. Böyük Vətən müharibəsi illərində vətənpərvərlik mövzusunda bir sıra mahnılar, "Vətən və cəbhə" kantatası, habelə "Sənsiz" və "Sevgili canan" romanslarını, Qələbə günü münasibətilə "Qələbə himni"ni yazıb.

Bu gün bəstəkarın xatirəsi adını daşıdığı Bakı Musiqi Akademiyasında, digər mədəniyyət ocaqları və bədii kollektivlərdə deyil, həmçinin ədəbi əsərlərdə yaşayır. Mərhum şair Tofiq Bayram şeirlərindən birini bəstəkarın ev-muzeyinə həsr edib.Tədbirdə Asəf Zeynallı adına Musiqi məktəbinin tələbəsi Amalya Məmmədova həmin şeiri oxudu.

**Savalan FƏRƏCOV**

# Dahi bəstəkar vəfatının ildönümündə məzarı önündə anıldı

Azərbaycan professional musiqisinin banisi, böyük musiqişünas-alim, pedaqoq Üzeyir Hacıbəylinin vəfatından 70 il ötdü. Noyabrın 23-də – dahi bəstəkarın xatirə günündə mədəniyyət və incəsənət xadimləri, ictimaiyyət nümayəndələri Üzeyir Hacıbəylinin Fəxri xiyabandakı məzarını ziyarət etdilər.



Azərbaycan Bəstəkarlar İttifaqının sədri, Xalq artisti Firəngiz Əlizadə çıxış edərək bəstəkarın zəngin yaradıcılığından, musiqi mədəniyyətimizin tarixində müstəsna rolundan söz açdı. Bildirdi ki, bütün ömrünü Azərbaycan mədəniyyətinə, musiqisinə həsr edən unudulmaz şəxsiyyət ən müxtəlif janrlarda musiqi əsərləri – opera, operetta, marş, kantata, mahnı və romanslar, kamera və xor əsərləri yazmaqla bərabər, 300-dən çox xalq mahnısını nota köçürüb. Üzeyir Hacıbəyli təkcə musiqi bəstələmirdi, həm də xalq musiqisinin nəzəri əsaslarını gələcək nəslə çatdırmaq üçün tədris vəsaitləri hazırlayırdı. Onun 1945-ci ildə nəşr edilmiş "Azərbaycan xalq musiqisinin əsasları" adlı mükəmməl elmi əsəri bu gün də musiqi dərsliyi kimi istifadə edilir.

Vurğulandı ki, Üzeyir Hacıbəyli Azərbaycan musiqisində köklü dönüş yaratmış dahidir. O, milli bəstəkarlıq məktəbinin özülünü qoymaqla yanaşı, təkcə Azərbaycanda deyil, müsəlman Şərqində ilk operanın, ilk musiqili komediyanın, musiqi tariximizdə bir sıra janrların ilk nümunələrinin yaradıcısı kimi əbədi olaraq xatırlanacaq.

Diqqətə çatdırıldı ki, Üzeyir Hacıbəylinin əsərləri bu gün də dünyanın konsert salonlarında ifa olunur. Bəstəkarın doğum günü – 18 sentyabr ənənəvi olaraq ölkəmizdə Musiqi günü kimi qeyd edilir və hər il onun xatirəsinə həsr olunmuş musiqi festivalı keçirilir.

Sonra Azərbaycan Dövlət Xor Kapellasının ifasında Üzeyir Hacıbəylinin "Leyli və Məcnun" operasından "Şəbi-hicran" səsləndirildi.

**F.HÜSEYNOV**

# Rasim Ocaqovun 85 illiyi doğma şəhərində qeyd edilib







Azərbaycan kino sənətinin görkəmli nümayəndəsi, kinorejissor, SSRİ və respublika dövlət mükafatları laureatı, Xalq artisti Rasim Ocaqovun anadan olmasının 85 illiyi noyabrın 24-də onun doğulub boya-başa çatdığı Şəki şəhərində qeyd olunub.

Şəhər rəhbərliyi, sənətkarın ailə üzvləri və sənət dostları, yubiley tədbirinə dəvət olunan qonaqlar, mədəniyyət və incəsənət xadimləri əvvəlcə Rasim Ocaqovun şəhərin "Güyümlər" dairəsi ərazisindəki barelyefi önünə əklil və gül dəstələri qoyaraq xatirəsini ehtiramla yad edirlər. 2008-ci ildə qoyulmuş barelyefin müəllifi Xalq rəssamı Natiq Əliyevdir.

Sonra tədbir iştirakçıları Rasim Ocaqovun adı verilmiş Şəki Uşaq-Gənclər İnkişaf Mərkəzinin açılışında iştirak ediblər. Mərkəzin nəzdində uşaq kino-foto studiyası da fəaliyyət göstərəcək.

Şəhər İcra Hakimiyyəti başçısının müavini Zərinə Cavadova, Təhsil Nazirliyinin şöbə müdiri Vasif Məmmədov mərasimdə çıxış ediblər. Sonra musiqili proqram təqdim edilib.

* * *

Həmin gün Şəki şəhərində Rasim Ocaqovun anadan olmasının 85 illiyi münasibətilə yubiley tədbiri keçirilib.

Tədbirin əvvəlində sənətkarın həyat və yaradıcılığından bəhs edən sənədli film nümayiş etdirilib.

Şəhər İcra Hakimiyyətinin başçısı Elxan Usubov çıxış edərək Rasim Ocaqovun 85 illiyinin qeyd olunmasının Şəkinin mədəni həyatında əlamətdar hadisə olduğunu bildirib. Vurğulanıb ki, görkəmli kinorejissorun yaradıcılığında Şəki mövzusu xüsusi yer tutur. O, doğulduğu yerə qəlbən bağlı idi. Onun bir sıra filmlərindəki şəkili obrazlarında burada yaşayan insanlara xas olan xüsusiyyətlər böyük sənətkarlıqla canlandırılıb. Rasim Ocaqovun xatirəsi anadan olduğu şəhərdə daim əziz tutulur. Şəkidə onun yaşadığı evə xatirə lövhəsi vurulub, "Güyümlər" meydanında barelyefi qoyulub. Şəhərin küçələrindən biri sənətkarın adını daşıyır. Yubiley tədbirləri çərçivəsində açılışı olan Şəki Uşaq Gənclər İnkişaf Mərkəzi də onun adını yaşadacaq.

Rasim Ocaqovla bağlı xatirələrini bölüşən Azərbaycan Respublikası Kinematoqrafçılar İttifaqının sədri, Dövlət mükafatları laureatı, Xalq artisti Şəfiqə Məmmədova deyib: "Azərbaycan milli kinosunda elə bil ayrıca kino adası var - Rasim Ocaqovun kinosu. Mən özümü çox xoşbəxt insan sayıram ki, o kinoya aidəm və orada varam. Rasim Ocaqov çox şərəfli, çox mənalı bir ömür yaşadı. Heç nədə gözü yox idi, filmləri idi onun varlığı. O, bu varlığı Azərbaycan xalqına miras qoyub getdi".

Rasim Ocaqovun filmlərində rol almış xalq artistləri Hacı İsmayılov və Fəxrəddin Manafov kinorejissorla bağlı xatirələrini bölüşüblər.

Sonra Xalq artisti Rasim Ocaqovun 85 illik yubileyi ilə əlaqədar Azərbaycan Respublikası Kinematoqrafçılar İttifaqının keçirdiyi "Şəki, mən səni sevirəm" müsabiqəsinin qaliblərinin mükafatlandırılması mərasimi olub.

"Ən yaxşı bədii film" nominasiyasında rejissor Tahir Əliyevin "Xalisin arzuları", "Ən yaxşı sənədli film" nominasiyasında Zamin Məmmədovun "Şəbəkə" filmi qalib olub. "Foto" nominasiyasında Nigar Pirimovanın "Qədim Şəki" fotosu mükafat qazanıb. Tacəddin Quliyevin "Şəki, mən səni sevirəm", Rəşad Qasımovun "Rasim Ocaqov zirvəsi" filmləri, Azər Cəfərovun "Şəkinin uşaqları" fotosu münsiflər heyətinin xüsusi mükafatına layiq görülüb.

# Şabranda dram dərnəyinə "Xalq teatrı" adı verilib

Şabran rayon Mədəniyyət Mərkəzində fəaliyyət göstərən dram dərnəyinə "Xalq teatrı" adı verilməsi ilə əlaqədar tədbir keçirilib.



Tədbiri giriş sözü ilə Xaçmaz Regional Mədəniyyət İdarəsinin Şabran rayonu üzrə nümayəndəsi Əhməd Səmədov açaraq rayonun tarixindən, mədəni müxtəlifliyindən, dərnəyin fəaliyyətindən danışıb.

Xaçmaz Regional Mədəniyyət İdarəsinin rəisi Nazim Ağayev bildirib ki, Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin müvafiq əmri ilə Şabran dram dərnəyinə "Şabran Xalq teatrı" adı verilib. O, müvafiq diplomu teatrın rəhbəri Cabir Əmrahova təqdim edib, kollektivə təbriklərini çatdırıb. Bildirib ki, Şabran dram dərnəyi regionda "Xalq teatrı" adı almış ikinci belə kollektivdir.

Sonra Şabran Xalq teatrı tərəfindən İlyas Əfəndiyevin əsəri əsasında hazırlanmış "Hökmdar və qızı" adlı tamaşa (quruluşçu rejissor Cabir Əmrahov) nümayiş etdirilib.

Sonda çıxış edən rayon İcra Hakimiyyətinin başçısı Novruz Novruzov bu əlamətdar hadisə münasibətilə təbriklərini çatdıraraq Xalq teatrının bir neçə üzvünə fəxri fərmanlar təqdim edib.

# Respublika müşavirəsində "Bölgələrdən bölgələrə" festivalına yekun vurulacaq

əvvəli səh. 1-də

Ağstafa və Gəncə Regional Mədəniyyət idarələrinin təşkilatçılığı ilə Qazax rayon Mədəniyyət Mərkəzində keçirilən "Bölgələrdən bölgələrə" adlı konsert proqramında F.Əmirov adına Gəncə Dövlət Filarmoniyasının "Xəmsə" estrada qrupu çıxış edib.

Tədbirdə Ağstafa Regional Mədəniyyət İdarəsinin rəisi Ramiz Quliyev, Gəncə Regional Mədəniyyət İdarəsinin rəisi Sənan Hacıyev, Qazax, Ağstafa və Tovuz rayonlarının mədəniyyət işçiləri iştirak ediblər.

Alqışlarla qarşılanan konsert proqramına cavab tədbiri olaraq Ağstafa Regional Mədəniyyət İdarəsinin "Oğuz-Tayfa" instrumental ansamblı Gəncə şəhərində çıxış edib. Ağstafa və Gəncə regional idarələrinin təşkilatçılığı ilə həyata keçirilən konsertdə təqdim olunan musiqi nömrələri, balaca rəqqasların çıxışları hər kəsin marağına səbəb olub.



* * *

Xaçmaz Regional Mədəniyyət İdarəsinin musiqi kollektivləri isə Sumqayıt şəhərində konsert proqramı təqdim ediblər.

Şəhərdəki Heydər Əliyev Mərkəzində təşkil edilən konsertdən öncə Sumqayıt Regional Mədəniyyət İdarəsinin rəisi Mehman Şükürov çıxış edərək tədbirin önəmindən danışıb. Xaçmaz Regional Mədəniyyət İdarəsinin rəisi Nazim Ağayev Mədəniyyət Nazirliyinin təşəbbüsü ilə keçirilən bu tədbirlərin regionlararası mədəni əlaqələrin güclənməsinə, təcrübə mübadiləsinin artmasına müsbət təsir etdiyini bildirib.

Daha sonra səhnəyə çıxan Xaçmaz Regional Mədəniyyət İdarəsinin musiqi kollektivlərinin ifaları alqışlarla qarşılanıb.

* * *

"Bölgələrdən bölgələrə" adlı daha bir konsert Xaçmaz şəhərində Xaçmaz və İsmayıllı Regional Mədəniyyət idarələrinin birgə təşkilatçılığı ilə gerçəkləşib.

Konsert proqramında İsmayıllı Regional Mədəniyyət İdarəsinin əhatə etdiyi rayonlarda fəaliyyət göstərən incəsənət ustaları və kollektivləri çıxış edib.

Sumqayıt şəhər F.Əmirov adına Uşaq musiqi məktəbində fəaliyyət göstərən "Buta" qızlar ansamblı isə İsmayıllı rayon Mədəniyyət Mərkəzində konsert proqramı təqdim edib.

Konsertdə ansamblın solistlərinin ifasında Ələkbər Tağıyevin, Əlibaba Məmmədovun mahnı və təsnifləri, Xalq artisti Zeynəb Xanlarovanın repertuarından mahnılar, muğam və saz havaları maraqla dinlənilib.

Sonda F.Əmirov adına Uşaq musiqi məktəbinin direktoru Vasif Heydərov çıxış edərək belə tədbirlərin keçirilməsinin regionlararası əlaqələrdə mühüm rol oynadığını bildirib.

## Aşıq Şəmşirin 125 illiyi münasibətilə

Biləsuvar Regional Mədəniyyət İdarəsinin və Cəbrayıl Rayon Tarix-Diyarşünaslıq Muzeyinin təşkilatçılığı ilə Biləsuvardakı Heydər Əliyev Mərkəzində Aşıq Şəmşirin anadan olmasının 125 illiyinə həsr edilmiş tədbir keçirilib.

İdarənin rəisi Elçin Hüseynov tədbiri açaraq sənətkarın 125 illiyinin qeyd edilməsi ilə bağlı ölkə başçısının müvafiq sərəncam imzaladığını deyib.

Tədbir "Dirili Qurbani" saz-söz məclisi üzvlərinin çıxışları ilə davam edib. Cəbrayıl Tarix-Diyarşünaslıq Muzeyinin direktoru T.Abbaslı, filologiya üzrə fəlsəfə doktoru T.Şirvanlı, Azərbaycan Aşıqlar Birliyinin üzvləri M.Hüseynli, G.Kəlbəcərli, P.Laçınlı və digər saz-söz ustaları Dədə Şəmşirin yaradıcılığına həsr olunmuş şeir və musiqi çələngi təqdim ediblər.

# Qax şəhərində növbəti "Milli mətbəx bayramı"

Şəki Regional Mədəniyyət İdarəsinin təşkilatçılığı, Qax Rayon İcra Hakimiyyətinin dəstəyi ilə noyabrın 25-də Qax şəhərində növbəti "Milli mətbəx bayramı" keçirilib.



Mədəniyyət mərkəzində təşkil olunan tədbirdə Qax, Zaqatala, Balakən, Şəki və Oğuz rayonlarının milli mətbəxinə aid nümunələr, həmçinin xalq sənətkarlarının, tətbiqi sənət ustalarının əl işləri nümayiş etdirilib.

Rayon İcra Hakimiyyəti başçısının müavini Vəfa Heydərova, Şəki Regional Mədəniyyət İdarəsinin rəisi Mirvari Zeynalova və rayonlardan dəvət olunmuş qonaqlar əvvəlcə bölgə kulinarlarının hazırladıqları milli mətbəx nümunələrinin sərgisi ilə tanış olublar.

Bayram tədbiri sonra Mədəniyyət mərkəzinin zalında konsert proqramı ilə davam edib. Tədbirdə Şəki Regional Mədəniyyət İdarəsinin Qax rayonu üzrə məsləhətçisi Dilarə Əzizova bölgənin milli mətbəxinin təbliği və tanıdılması baxımından belə tədbirlərin əhəmiyyətindən bəhs edib.

# Mikayıl Müşfiqə həsr olunmuş ədəbi-bədii gecə

Saatlı rayon Mərkəzi kitabxanası rayon Mədəniyyət Mərkəzində Azərbaycan ədəbiyyatının unudulmaz simalarından biri, şair Mikayıl Müşfiqin anadan olmasının 110 illiyi münasibətilə tədbir keçirib.

Tədbirdə ümumtəhsil məktəblərinin şagirdləri, Tibb kollecinin, Texniki peşə liseyinin tələbələri, ziyalılar, fəal oxucular iştirak ediblər.

Rayon İcra Hakimiyyətinin məsul işçisi Mehriban Ağayeva, Sabirabad Regional Mədəniyyət İdarəsinin baş məsləhətçisi Telman Əzimov, Mərkəzləşdirilmiş Kitabxana Sisteminin direktoru Sakit Bağırov, Mədəniyyət mərkəzinin direktoru Bəylər Əliyev və digərləri çıxış ediblər. Uşaq musiqi məktəbinin kollektivinin iştirakı ilə ədəbi-bədii kompozisiya nümayiş etdirilib.

# “Bu, Azərbaycan vokal məktəbinin böyük uğurudur”

## “Müğənnilərimiz Böyük Teatrda parlaq çıxış edirlər”

Rusiya Dövlət Akademik Böyük Teatrının solisti, tanınmış opera müğənnisi Elçin Əzizova ”Azərbaycan Respublikasının Xalq artisti” fəxri adının vəsiqəsi və döş nişanı təqdim edilib. Elçin Əzizov Prezident İlham Əliyevin 27 may 2018-ci il tarixli sərəncamı ilə Azərbaycan mədəniyyətinin inkişafında xidmətlərinə görə bu ada layiq görülüb.



Noyabrın 22-də Rusiya Dövlət Akademik Böyük Teatrının səhnəsində P.İ.Çaykovskinin “Qaratoxmaq qadın” operası göstərilib. Tamaşada iki əsas kişi rolunu azərbaycanlı opera müğənniləri Elçin Əzizov və Yusif Eyvazov ifa ediblər.

Tamaşa qurtarandan sonra Azərbaycanın Rusiyadakı səfiri Polad Bülbüloğlu səhnəyə çıxaraq fəxri adın vəsiqəsini və döş nişanını müğənniyə təqdim edib.

Diplomat diqqətə çatdırıb ki, Azərbaycan Prezidentinin sərəncamı ilə Elçin Əzizov və Yusif Eyvazov eyni gündə təltif olunublar: “Yusif Eyvazova bu mükafatı bizim Böyük Britaniyadakı səfirimiz təqdim edib, bu yüksək adın vəsiqəsini və döş nişanını Moskvada, Böyük Teatrın binasında təqdim etmək şərəfi isə mənə qismət olub”.

Səfir qeyd edib ki, 1938-ci ildə Moskvada Azərbaycan incəsənəti dekadası keçirilərkən görkəmli müğənni Bülbül Böyük Teatrın bu tarixi səhnəsində oxuyub: “Mən çox həyəcanlıyam, çünki bu səhnə mənim üçün böyük əhəmiyyət kəsb edir. Səksən il bundan əvvəl mənim atam Bülbül bu səhnədə əfsanəvi xalq qəhrəmanı Koroğlu rolunda çıxış edib. Bu gün, o tarixdən 80 il keçəndən sonra Böyük Teatrın səhnəsində böyük rus bəstəkarı Pyotr İliç Çaykovskinin operasında iki azərbaycanlı parlaq çıxış edir. Bu, Azərbaycan vokal məktəbinin böyük uğurudur. Mən bu gün bütün dünya səhnələrində oxuyan Elçin Əzizovu, Yusif Eyvazovu, Dinara Əliyevanı təbrik etmək istəyirəm. Gəlin bizim solistlərə, bu səhnədə olanların hamısına böyük uğurlar diləyək”.

Elçin Əzizov əməyinin yüksək qiymətləndirilməsinə görə Azərbaycan Prezidenti İlham Əliyevə minnətdarlığını bildirib. Müğənni həmçinin tamaşaçılara və kollektivə dərin ehtiramını bildirib, səfir Polad Bülbüloğluna təşəkkür edib.

# Ölməz musiqilər tələbə və şagirdlərin ifasında

Beynəlxalq Muğam Mərkəzində Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin (ADMİU) birgə həyata keçirilən ”Yeni nəsil dəvət edir” layihəsi çərçivəsində dahi bəstəkar Qara Qarayevin 100 illiyinə həsr olunmuş konsert təqdim edilib.

Konsertdən öncə ADMİU-nun Musiqi sənəti fakültəsinin dekanı, sənətşünaslıq üzrə fəlsəfə doktoru Nərminə Qaralova çıxış edərək Qara Qarayevin yaradıcılığından söhbət açıb. Sonra bəstəkarın həyat və yaradıcılığı haqqında videoçarx nümayiş olunub.

Konsertdə tələbələrin ifasında Qara Qarayevin əsərləri səsləndirilib.



Moskvadakı Qara Qarayev adına Uşaq musiqi məktəbində isə bəstəkarın 100 illiyinə həsr olunmuş festival keçirilib.

Festivalda Moskvanın bir sıra musiqi məktəblərinin şagirdləri Qara Qarayevin əsərlərini məharətlə ifa ediblər. Festival böyük konsert proqramı ilə başa çatıb. Qaliblərə diplomlar və fəxri fərmanlar təqdim olunub.

# Bakıda Türk filmləri həftəsi keçirildi

*əvvəli səh. 1-də*

Mətbuat konfransında iştirak edən Türkiyənin tanınmış kinoaktyoru, “Diriliş Ertuğrul” serialında baş qəhrəmanlardan birini oynayan Sezgin Özdemir bildirdi ki, Bakıya gəlişindən çox məmnundur. Türk filmləri həftəsi həm də iki ölkənin kino mütəxəssislərinə təcrübə mübadiləsi imkanıdır. Azərbaycan kinosu nümunələrindən “Dədə Qorqud”, “Babək”, “Nəsimi”, “Nabat”, “Nar bağı” kimi filmləri izlədiyini deyən aktyor azərbaycanlı kinematoqrafçıların öz işlərini daha geniş miqyasda tanıtmasının vacibliyini də diqqətə çatdırdı.

Mətbuat konfransında tanınmış aktrisa, “Səni sevirəm, adamım” filmində baş rolu oynayan Gizem Karaca, “Güllər” filminin baş rol ifaçısı Dəniz Oral və rejissoru Mehmet Gün, “Hay” animasiya filminin prodüseri Ahmet Edebali, rejissor Murat Çeri, menecer Özlem Erçağlar jurnalistləri maraqlandıran sualları cavablandırdılar.




* * *

Həmin gün axşam Nizami Kino Mərkəzində IV Türk filmləri həftəsinin açılış mərasimi keçirildi.

Mərasimdə Əməkdar incəsənət xadimi Ayaz Salayev çıxış edərək artıq ənənə halını almış layihənin əhəmiyyətindən söz açdı. Bildirdi ki, bu gün türk filmlərinin dünya miqyasında izləyici auditoriyası var: “Bu, bizim üçün sevindirici haldır. Türk filmlərinə baxdıqda, sanki öz filmlərimizə baxırıq. Türkiyə istehsalı olan filmlərin uğurlarını biz öz uğurlarımız hesab edirik”. Bildirdi ki, tamaşaçılar üçün bu həftə çox gözəl film bayramı olacaq.



Layihənin koordinatoru, rejissor Öner Kılıç həftə ərzində baxılacaq ekran əsərləri barədə məlumat verdi.

Qonaqları salamlayan Türkiyə Prezidentinin baş müşaviri, Yerli Düşüncə Dərnəyinin fəxri başqanı Yalçın Topçu film həftəsinin önəmini qeyd etdi. Bildirdi ki, türk filmləri yalnız Azərbaycanda deyil, digər qardaş türkdilli ölkələrdə, eləcə də dünyanın müxtəlif ölkələrində nümayiş olunur.

Türkiyənin Azərbaycandakı səfiri Erkan Özoral iki qardaş xalq arasında əsrlər boyu davam edən sarsılmaz dostluq əlaqələrindən danışdı: “Bu gün Türkiyə ilə Azərbaycan arasında yeni mədəniyyət körpüsü qurulur. Bizi bir-birimizə bağlayan çox səbəblər var, ancaq bunlardan ən önəmlisi könül bağlarıdır. Bizlər bir millət, iki dövlət olaraq, bir-birimizi hər sahədə tanımalı, yaxınlaşmalıyıq, bunun üçün mədəniyyətlərimizi qarşılıqlı surətdə təbliğ etməliyik”.

Cəfər Cabbarlı adına “Azərbaycanfilm” kinostudiyasının direktoru Müşfiq Hətəmov da film həftəsinin əhəmiyyətini yüksək qiymətləndirdi: “Biz qardaş ölkə Türkiyə ilə mədəniyyət sahəsindəki əməkdaşlığımızdan məmnunuq. Kino sənayemizi inkişaf etdirmək üçün Türkiyənin təcrübəsindən geniş istifadə etməliyik. İnanıram ki, bu sahədə əlaqələrimiz daha da möhkəmlənəcək”.

Sonra rejissor Mehmet Günün “Güllər” filmi nümayiş olundu. Film yaşanılan faciələrin Anadolu insanı üzərində təsirindən bəhs edir.

Qeyd edək ki, Türk filmləri həftəsi ərzində beş ekran əsəri ümumilikdə 9 dəfə pulsuz nümayiş olunub. Proqrama “Güllər”, “Səni sevirəm, adamım”, “Can fəda”, “Hay” və “Anons” filmləri daxil idi. Nümayişdən sonra rejissorlar və filmdə rol almış aktyorlarla izləyicilərin görüşü təşkil edilib.

Həftə çərçivəsində türkiyəli kinematoqrafçıların Mədəniyyət və İncəsənət Universitetinin tələbələri ilə görüşü də keçirilib.

**LALƏ FARİZ**

# “Mənim Azərbaycanım” yenidən səhnədə

Dekabrın 25-də Azərbaycan Dövlət Rəqs Ansamblı Heydər Əliyev Sarayında ”Mənim Azərbaycanım” adlı konsert proqramı ilə yenidən sənətsevərlərin qarşısına çıxacaq.




Sarayın mətbuat xidmətindən bildirilib ki, obrazlılığı, rəngarəngliyi və ifaları böyük maraqla qarşılanan “Mənim Azərbaycanım” konsert proqramında milli rəqslərimizlə yanaşı, “Koroğlu” birpərdəli milli baleti də nümayiş olunacaq.

Konsert proqramının bədii rəhbəri və quruluşçusu Rusiyanın Xalq artisti Dikalu Muzakayevdir.

# Tarzən Məmməd Ağasıyevin xatirəsi anılıb

Beynəlxalq Muğam Mərkəzində tarzən Məmməd Ağasıyevin 70 illiyinə həsr olunmuş xatirə gecəsi keçirilib. Tədbir ”Mədəniyyət” kanalı və Beynəlxalq Muğam Mərkəzinin birgə layihəsi çərçivəsində reallaşıb.



Xalq artisti, tarzən Vamiq Məmmədəliyev, Milli Məclisin deputatı Qənirə Paşayeva və jurnalist-publisist Sədaqət Kərimova çıxış edərək Məmməd Ağasıyevin həyat və yaradıcılığından söz açıb, sənət fəaliyyəti haqqında məlumat veriblər.

Tədbir tanınmış ifaçıların konsert proqramı ilə davam edib. İfaçıları Xalq artisti Adil Bağırovun bədii rəhbərliyi ilə Azərbaycan Televiziyası və Radiosunun Əhsən Dadaşov adına “Xatirə” xalq çalğı alətləri ansamblı müşayiət edib.

Sonda sənətkarın qızı, bəstəkar-müğənni Sevinc Ağasıyeva tədbirin təşkilatçılarına və iştirakçılarına dərin minnətdarlığını bildirib.

# “Cahan fikrimizlə süslənəcəkdir...”

Bakı Xoreoqrafiya Akademiyası (BXA) Təhsil Kompleksinin tam orta məktəbində Mikayıl Müşfiqin anadan olmasının 110 illiyi münasibətilə «Cahan fikrimizlə süslənəcəkdir, Hər zaman nəğməmiz səslənəcəkdir” adlı ədəbi-bədii kompozisiya keçirilib.



Əvvəlcə məktəbin direktoru Bəşarət Hüseynova çıxış edərək tədbirin Mikayıl Müşfiqin 110 illiyi haqqında ölkə başçısının sərəncamına uyğun olaraq təşkil edildiyini söyləyib, görkəmli şairin həyat və yaradıcılığından danışıb.

Sonra BXA-nın Azərbaycan dili və ədəbiyyatı kafedrasının müdiri, professor Vəfa Əliyev Mikayıl Müşfiq poeziyasından bəhs edərək şairin şəxsiyyətini milli şüur və vətənpərvərliyin mücəssəməsi, onun yaradıcılığını isə gənc nəslin milli mənlik şüurunun inkişaf etdirilməsində, vətənpərvərlik hislərinin tərbiyəsində əvəzsiz xəzinə adlandırıb. BXA-nın tam orta məktəbinin Azərbaycan dili və ədəbiyyatı müəllimi Aypara Məmmədova da Müşfiq yaradıcılığından bəhs edib.

Məktəblilər Müşfiq poeziyasından “Yenə o bağ olaydı”, “Oxu, tar” şeirlərini və digər nümunələri səsləndirib, rəqs ediblər.

Sonda M.Müşfiqin “Şəngül, Şüngül, Məngül” nağılından səhnəcik nümayiş etdirilib.

# Şəkidə ustad dərsləri

Mədəniyyət Nazirliyinin müvafiq əmrinə əsasən Şəki şəhərində Bakı Xoreoqrafiya Akademiyasının mütəxəssisləri tərəfindən ustad dərsləri keçirilib. Dərsləri BXA-nın kafedra müdiri, Əməkdar artist Sənan Hüseynli və Prezident təqaüdçüsü Çinarə Quliyeva aparıblar.

4 №-li Uşaq musiqi məktəbinin konsert zalında reallaşan tədbirdə Şəki Regional Mədəniyyət İdarəsinin əhatə etdiyi Şəki, Balakən, Zaqatala və Qax rayonlarının uşaq incəsənət məktəbləri, mədəniyyət evləri və klublarında çalışan xoreoqrafiya üzrə mütəxəssislər və onların şagirdləri iştirak ediblər.

Regional idarənin rəisi Mirvari Zeynalova qonaqları və iştirakçıları salamlayıb.

Ustad dərslərində əvvəlcə kollektivlərin ifasında bir neçə rəqs təqdim olunub. Sonra BXA-nın müəllimləri tərəfindən xüsusi innovativ proqram üzrə məşğələlər keçirilib. Ustad dərsləri xoreoqrafiya üzrə tədrisin keyfiyyətinin, mütəxəssislərin peşəkarlıq səviyyəsinin artırılması və bu sahədə istedadlı yeniyetmələrin aşkar edilməsi məqsədi daşıyır.

# “Sənət fədailəri”

Noyabrın 26-da Cəfər Cabbarlı adına Respublika Gənclər Kitabxanasında unudulmaz sənətkarlar, xalq artistləri – opera müğənnisi Gülxar Həsənovanın 100 və aktyor Həsən Məmmədovun 80 illiyinə həsr olunmuş “Sənət fədailəri” adlı tədbir keçirilib.



Kitabxananın direktor müavini Xalidə Musayeva tədbiri açaraq ölkə başçısının 30 iyul 2018-ci il tarixli sərəncamı ilə məşhur aktyor Həsən Məmmədovun 80, 15 avqust 2018-ci il tarixli sərəncamla Azərbaycanın görkəmli opera müğənnisi Gülxar Həsənovanın 100 illiyinin qeyd olunduğunu diqqətə çatdırıb.

Çıxış edənlər hər iki sənətkarın ömür yolu və yaradıcılığından söhbət açıblar.

Tədbirdə Həsən Məmmədovun kino və Gülxar Həsənovanın səhnə fəaliyyətlərini əks etdirən qısametrajlı film nümayiş olunub.

Sonra qonaqlar “Azərbaycanın səhnə korifeyləri” adlı fotosərgiyə baxıblar.

# Xırdalanlı şagirdin nailiyyəti

Sumqayıt Regional Mədəniyyət İdarəsinin Abşeron rayon Xırdalan şəhər 11 illik Musiqi məktəbinin fortepiano ixtisası üzrə IV sinif şagirdi 10 yaşlı Nuray Mehdiyeva (müəllim – Arzu Manafova) 21-24 noyabr tarixində Tbilisidə keçirilən gənc pianoçuların beynəlxalq müsabiqəsində uğur qazanıb.




3 yaş qrupu üzrə keçirilən müsabiqənin I yaş qrupunda çıxış edən Nuray Mehdiyevanın ifası Rusiya, Amerika, İsrail, Litva və Gürcüstandan olan münsiflər heyəti tərəfindən yüksək qiymətləndirilərək, II dərəcəli diploma layiq görülüb.

№87 (1577)
29 noyabr 2018
www.medeniyyet.az

## "Müşfiqli dünya"



Dekabrın 21-də Heydər Əliyev Sarayında Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, şair Mikayıl Müşfiqə həsr olunmuş ədəbi-bədii gecə keçiriləcək. Azərbaycan Televiziyasının "Mədəniyyət" kanalı və Heydər Əliyev Sarayının birgə təşkilatçılığı ilə keçiriləcək "Müşfiqli dünya" adlı gecədə ölməz şairin həyat və yaradıcılığından söhbət açılacaq, şeirləri, sözlərinə yazılan mahnılar səslənəcək.

Mikayıl Müşfiq qısa ömrünə baxmayaraq, əsərləri ilə Azərbaycan ədəbiyyatında dərin iz qoyub, Azərbaycan poeziyasında öz yolunu yaradıb. Şair 30 illik qısa ömrə sığışan böyük sənət uğurları, qeyri-adi yaradıcılığı ilə bu gün də insanları düşündürür, heyrətləndirir və sevindirir.

## Afaq Məsudun romanı Türkiyədə nəşr olunub




Tanınmış yazıçı, tərcüməçi, Əməkdar incəsənət xadimi Afaq Məsudun "Azadlıq" romanı Türkiyədə nəşr olunub.

"Zengin yayıncılık" nəşriyyatında işıq üzü görən kitabı türk dilinə tanınmış mütərcim Yurtsevən Şen çevirib.

Kitab Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin "Zengin yayıncılık" nəşriyyatı ilə birgə həyata keçirdiyi "Azərbaycan kitablarının dünyada tanıdılması" layihəsi çərçivəsində ərsəyə gəlib.

## Kitabxanada İmran Qasımovun 100 illiyi qeyd edilib

Noyabrın 23-də Binəqədi rayon Mərkəzləşdirilmiş Kitabxana Sistemində (MKS) Xalq yazıçısı, dramaturq, ssenarist İmran Qasımovun (1918-1981) 100 illik yubileyi ilə bağlı ədəbi-bədii tədbir keçirilib.

Tədbiri Binəqədi rayon MKS-nin direktoru Rəna Biləndərli açaraq İmran Qasımovun ömür yolundan danışıb. Qeyd edib ki, İmran Qasımov ədəbi yaradıcılığı ilə yanaşı, respublika kinematoqrafiya nazirinin birinci müavini, "Literaturnı Azerbaydjan" jurnalının baş redaktoru, 1975-ci ildən ömrünün sonuna kimi Azərbaycan Yazıçılar İttifaqı İdarə heyətinin birinci katibi vəzifələrində çalışıb. Əməkdar incəsənət xadimi, Xalq yazıçısı fəxri adlarına layiq görülüb, Azərbaycan Dövlət mükafatı, "Lenin", "Qırmızı Əmək Bayrağı", "Şərəf Nişanı" ordenləri ilə təltif olunub. Onun "İllər keçir", "İtaliya mozaikası" kimi əsərləri Moskva teatrlarında da səhnələşdirilib. Həsən Seyidbəyli ilə birgə qələmə aldığı "Uzaq sahillərdə" romanı müxtəlif dillərə tərcümə olunaraq müəlliflərini və ölkəmizi bütün dünyada tanıdıb.



"Mədəniyyət" qəzetinin əməkdaşı Savalan Fərəcov çıxış edərək görkəmli sənətkarın Azərbaycan ədəbiyyatının inkişafında mühüm xidmətlərindən danışıb. Qeyd edib ki, İ.Qasımovun nasir, dramaturq və ssenarist kimi zəngin yaradıcılığı var.




Hələ sağlığında əsərləri tədqiqat mövzusuna çevrilib, haqqında monoqrafiyalar yazılıb. Onun yaradıcılığı bütünlüklə müasirlərinin mənəvi zənginliyini, əxlaqi keyfiyyətini əks etdirib. Məhz bu səbəbdəndir ki, əsərləri böyük rəğbətlə qarşılanıb və sevilib.

Filologiya üzrə fəlsəfə doktoru, dosent Fərrux Məmmədov qeyd edib ki, öz dəst-xətti ilə seçilən İ.Qasımov XX əsr Azərbaycan ədəbiyyatının inkişafına töhfələr verib. Yaradıcılığında dənizin, Xəzər neftçilərinin xüsusi yeri var. "Yer altından gələn səslər", "Arzu", "Yeni üfüqlər", "Xəzər üzərində şəfəq", "Xəzər neftçiləri haqqında dastan", "Dəniz cəsurları sevir", "İnsan məskən salır" və sair əsərləri məhz bu mövzu ilə bağlıdır.

AMEA-nın Ədəbiyyat İnstitutunun elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru Aytən Rüstəmzadə bildirib ki, xəlqilik İ.Qasımovun yaradıcılığını şərtləndirən və səciyyələndirən xüsusiyyətlərdəndir. Bu, onun təsvir etdiyi qəhrəmanların mənəvi aləminə çox bağlı olduğunu parlaq şəkildə göstərir. O, qəhrəmanının həyat yolunu bir vətəndaş olaraq izləyir, müşahidə edirdi.

Çıxışlardan sonra yazıçının həyat və yaradıcılığı ilə bağlı videoçarx nümayiş olunub.

# Unudulmayacaq sənətkar xatirələri

**Elə səhnə ustası var ki, onun sənət yolu bir teatrın yaradıcılıq yoludur, səhnəyə gətirdiyi hər bir yenilik teatrın yeniliyidir, yaratdığı hər obraz, hətta epizodik olsa belə, tamaşaçının yaddaşına əbədi həkk olunur. Belə sənətkarların əsas meyarı istedaddır. İstedad işığına gedən yolda isə heç kəs azmaz. Xalq artisti Məhəmməd Burcəliyev də bu cür sənət həyatı yaşayıb.**



**Üç il bu teatrda fəaliyyət göstərib və maraqlı obrazlar yaradıb. 1935-ci ildən ömrünün sonunadək – 1994-cü il noyabrın 25-dək Gəncə Dövlət Dram Teatrında çalışıb.**

Məhəmməd İsmayıl oğlu Burcəliyev 1914-cü il aprelin 25-də Şəki şəhərində anadan olub. Burada beşillik orta təhsilini başa vurduqdan sonra 1930-cu ildə Bakıya gələrək Karl Libknext adına Fabrik-zavod məktəbinə daxil olub. O illəri aktyor öz xatirələrində belə yada salır: "1930-cu ilin əvvəllərində Bakıda sənət məktəbində oxumaq üçün şagird qəbulu ilə bağlı Şəkidə elanlar vurulurdu. Mən də oxumaq üçün özümü həmin məktəbə yazdırdım. Sənət məktəbinə gələrkən bizi çox yaxşı qarşıladılar və iş paltarı da verdilər. Bu sənət məktəbində həm qazma sənətini öyrənəcək, həm də təhsil almalı idik. Birhəftəlik təcrübə keçdikdən sonra təhsil alacağımız məktəbə gəldik. İlk dərsimiz ədəbiyyat dərsi idi. Zəng vuruldu və məktəbin direktoru yanında ortaboy, qarabuğdayı, qalın dodaqlı bir oğlanla daxil oldular sinfə. Direktor bizə dərslərimizdə və işlərimizdə uğurlar arzuladı. Sonra yanındakı oğlanı göstərib dedi:

- Bax, bu sizin ədəbiyyat müəlliminizdir. Özü də yaxşı şairdir. Yəqin ki, şeirlərini oxumusuz. Adı da Mikayıl Müşfiqdir.

Mən onun şeirləri ilə tanış idim. Amma üzünü görməmişdim. Müşfiq müəllim ədəbiyyatla maraqlananları çox sevirdi. Bir çox gəncin həyatında olduğu kimi, mən də şeir yazırdım. Bir gün Müşfiq müəllim dərsdən sonra mənim yazdığım şeirləri dinlədi. Qulaq asdı və bir söz demədi. Səhərisi gün mənim əlimdən tutub "Gənc işçi" qəzetinin redaksiyasında olan ədəbiyyat dərnəyinə aparıb üzv yazdırdı. Burada məni Süleyman Rüstəmlə tanış etdi. Yaxşı xatırlayıram. Mikayıl Müşfiqin "Buruqlar arasında" poeması Karl Libknext adına məktəbdə yarandı. Hər dəfə bu poemaya baxanda bütün hadisələr gözlərimin önündən keçir. Ölüm xəbərini eşidərkən yazdığı dörd misra yadıma düşdü:

*Mən gəncəm,*
*bilirəm istiqbalım var,*
*Hələ bədr olmamış*
*bir hilalım var.*
*Yelkənim açılır,*
*qara yel, əsmə,*
*Mənim bu dəryada*
*bir sandalım var.*

O qara yel əsdi, özü də nə yaman əsdi".

Məhəmməd Burcəliyev peşə məktəbini bitirdikdən sonra Fəhlə Pedaqoji Texnikumuna daxil olub. Bu məktəbin bitirilməsi ilə əlaqədar olaraq təşkil olunan konsert proqramında maraqlı çıxışını gördükdən sonra Sabit Rəhmanın dəvəti ilə 1932-ci ildən Şəki Dövlət Dram Teatrında aktyor kimi fəaliyyətə başlayıb.

1967-1968-ci illərdə N.K.Krupskaya adına Moskva Dövlət İncəsənət Universitetinin Teatr aktyoru və rejissoru fakültəsini bitirib. 1948-ci ildə "Yadigar" adlı bir dram əsəri də qələmə alıb. Həmin il pyes Gəncə teatrında tamaşaya qoyulub. Tamaşanın quruluşçu rejissoru Ağəli Dadaşov, rəssamı Bəhram Əfəndiyev və musiqi tərtibatçısı Şəmsəddin Fətullayev olub. "Yadigar" pyesi 1948-ci ildə "Müasir dramaturqların əsərlərinə baxış" ümumittifaq festivalında 3-cü dərəcəli diploma layiq görülüb. M.Burcəliyevin qəzet və jurnallarda 70-dən artıq məqalə, resenziya və oçerki dərc olunub.

O, aktyor kimi Gəncə Dövlət Dram Teatrının səhnəsində 300-dən artıq obraz yaradıb. "Od gəlini"ndə Altunbay, "Aydın"da Səlim, "Nəsrəddin şah"da Cavad xan, "Almaz"da Şərif, "Səyavuş"da Kərşivaz, "Fərhad və Şirin"də Azər baba, "Otello"da Rodriqo, "Vaqif"də İbrahim xan, "III Riçard"da Lord Hestinqs və s. obrazları onun yaradıcılığının əsasını təşkil edib. Bu teatrın səhnəsində M.Burcəliyev 11 əsərə – C.Məmmədquluzadənin "Ölülər", T.Məmmədovun "Ürək yanarsa", A.Məmmədovun "Həmyerlilər" və "Bəraət", T.Mahmudun "Onuncular", S.Rəhmanın "Əliqulu evlənir", Q.Mehdiyevin "Oxşarlar", Ş.Mehdiyevin "Mirzə Fətəli", R.Həmzətovun "Dağlı qızı", Y.Əzimzadənin "Anacan", A.Şaiqin "Tülkü həccə gedir" pyeslərinə quruluşçu rejissor kimi səhnə həyatı bəxş edib.

Həmçinin "Azərbaycanfilm"in istehsalı olan bir neçə ekran əsərində yaddaqalan rollar oynayıb. "Mən ki gözəl deyildim" filmində Əsgər, "Dəli Kür"də Allahyar, "Firəngiz"də Sürücü, "Gözlə məni"də Bəy, "Köhnə bərə"də İbrahim kişi, "Qəm pəncərəsi"ndə Rəşid bəy və "O dünyadan salam" filmində Hacı Baxşəli obrazları aktyorun geniş yaradıcılıq imkanlarından xəbər verir.

Məhəmməd Burcəliyev 1944-1945-ci illərdə Fikrət Əmirov ilə birgə Gəncə Dövlət Filarmoniyasını yaradaraq həmin illərdə bu mədəniyyət ocağının direktoru işləyib. 1950-1955-ci illərdə isə Gəncə Dövlət Dram Teatrının direktoru olub. 1955-ci ildə respublikanın Əməkdar artisti, 1958-ci ildə isə Xalq artisti fəxri adlarına layiq görülüb. 1994-cü il noyabrın 25-də Gəncə şəhərində vəfat edib.

Jurnalist Əhməd İsayevin 12 mart 1989-cu il tarixli "Kommunist" qəzetində Məhəmməd Burcəliyev haqqında yazısında oxuyuruq: "...Əsl el adamıdır. Kimsənin xeyrindən-şərindən qalmaz. Elə ki, qəlbini açdın, qayğı-kömək umdun, o dəqiqə qabağa düşür, ərki çatan yerə məsləhətə, minnətə gedir.



Özünün min bir qayğısı var. Yaşa dolub, oğul-uşağı da çox. Özündən bir kəlmə danışmaz, giley-güzarı xoşlayan deyil. Özgə dərdinə isə laqeyd qala bilmir. Əlli ildən çoxdur səhnəyə bağlanıb. Hamının sevimlisi, ağsaqqalı olub. Gəncə Dövlət Dram Teatrının salnaməsinə adı əbədilik yazılıb...".

Deyirlər ki, yaşamaq da bir sənətdir – taledən hər kəsə bəxş olunan sənət. Əsl insan odur ki, bu ömrü mahir sənətkar kimi yaşayır. İnsan sənətkar olandan sonra isə ikiləşir, sevinci də, kədəri də ikiqat artır. Sənətkarın payına sevinc az düşür, yaradıcılıq əzabları, nigarançılıq, şübhələr onu sıxır. Ancaq bu əzablar bağbanın becərdiyi ağacın meyvəsini dərənə qədər keçirdiyi əzablar kimidir. İkinci bir əzab da var – acı illərin verdiyi mənəvi əzab.

Məhəmməd Burcəliyev təlaşlı, həyəcanlı günlərinin birini belə xatırlayır: "1951-ci ilin soyuq yanvar ayı idi. Bir gün xəbər gəldi ki, Mir Cəfər Bağırov Ənvər Məmmədxanlının "Şərqin səhəri" pyesinin tamaşasına baxacaq. Mən də teatrın direktoruyam, həm də baş rollardan birini oynayıram. Fikrim budur ki, Mir Cəfər Bağırovdan teatrın təmiri, rekonstruksiya olunması üçün bir şey qopardım. İşıqçılara tapşırdım ki, Bağırov rolunu ifa edən aktyor, Xalq artisti Əşrəf Yusifzadə səhnəyə çıxan kimi, projektorları tuşlasınlar lojada oturmuş katib Mir Cəfər Bağırovun üstünə. Əmin idim ki, bu, ona xoş gələcək, mən də teatrın dərdlərini həll edə biləcəyəm. Tamaşa qurtardı, qulbeçələrdən biri rəngi qaçmış halda qrim otağına gəlib dedi ki, Burcəliyev, "Kişi" səni çağırır. Onun sifətində mən öz faciəmi oxudum. Dedim, axı hələ qrimimi silməmişəm. Doğrusu, minlərlə adamı gedər-gəlməzə göndərən, elə bizim teatrdan Ələkbər Seyfini sürgün etdirən Bağırovla üz-üzə gəlməyə qorxurdum. Qulbeçə getdi, bir azdan sonra daha təşvişlə qayıdıb bildirdi ki, Bağırov deyir, eybi yoxdur, qrimdə gəlsin. Sibirin şaxtası dondurdu burnumu. Girdim kabinetimə. Bağırov qəti səslə soruşdu:

- Familiyan?!

Familyam yadıma düşmədi ki, düşmədi. Rəhbərlərdən biri dedi ki, Burcəliyevdir, yəqin yadından çıxıb.

Mir Cəfər Bağırov məni xeyli süzdükdən sonra, gülümsündü, təbrik edirəm, - dedi. - Yaxşı tamaşadır. Bəs teatrın binası niyə soyuqdur?

- Yoldaş Bağırov, 0,5 düyməlik boru tapılmır. Ona görə də qalmışıq belə.

O vaxt şəhərin birinci katibi Ağamirzə Əhmədov idi. Bağırov soruşdu:

- Bəs bu Ağamirzə Əhmədov sənə kömək eləmir?

Katib də təsdiq etdi ki, 0,5 düyməlik boru Gəncədə tapılmır.

Bağırov getdi. Səhərə kimi özümə gələ bilmədim. Bilmədim yeni tamaşa üçün bu təbrik idi, ya ölüm fərmanı. Hə, bu söhbət axşam saat 10-da oldu. Səhər saat 9-da Dəmiryol vağzalından xəbər gəldi ki, sizin teatrın adına 0,5 düyməlik boru gəlib, gəlin aparın".

Teatrın vəziyyəti hər zaman Məhəmməd Burcəliyevi düşündürüb. Bu səbəbdən də onunla hər dəfə həmsöhbət olarkən fikirlərini öz cib dəftərcəmə qeyd edirdim. Bu gün həmin fikirlərə yenidən baxıram və aktyorun 1993-cü ildə dediyi maraqlı düşüncələrini bir daha oxuyuram: "Stanislavski deyir ki, teatr asılqandan başlayır. Elə biz də gəlin əvvəlcə teatrımızın asılqanına baş çəkək. İlboyu burada heç zaman palto, papaq görməzsiniz. Zalda oturan camaat soyuqdan əsir... Son zamanlar teatr xadimlərini narahat edən ən vacib bir məsələ də vardır. Teatrlar öz tamaşaçılarını itirirlər. Bunun səbəbi nədir? Nə üçün tamaşaçı teatrdan uzaqlaşır? Səbəbini araşdıranda, müxtəlif fikirlər, mülahizələr söylənilir. Bəziləri dramaturgiyamızın, bəziləri rejissor işinin zəifliyini, ümumiyyətlə, tamaşaların günün tələbinə cavab vermədiyini qeyd edirlər. Əlbəttə, bu sözlərdə də bir həqiqət vardır. Amma belə bir cəhəti unutmaq olmaz ki, tamaşaçı teatra hər şeydən əvvəl aktyor yaradıcılığına baxmağa gəlir. Tamaşaçını ən çox maraqlandıran aktyordur. O teatr bədbəxtdir ki, onun kollektivində tamaşaçı tərəfindən sevilən aktyoru yoxdur. O aktyor xoşbəxtdir ki, onun öz tamaşaçısı var. Keçmişdə teatr sahibləri (yəni antreprenyorlar – A.B.) tamaşaçı tərəfindən sevilməyən aktyorları işə götürməzdilər. İndi isə... Diplomu var, cavandır, yaraşıqlıdır, danışmağı bacarır – deməli aktyordur, deyib, kollektivləri yarıtmaz, ağır yüklərlə çətinliyə salırlar... Mən heç vaxt tamaşaçını qınamıram. Tamaşa maraqlı, məzmunlu olanda həmişə gəlirlər, baxırlar, xoş sözlər də deyirlər. Budur, Altay Məmmədovun "Kişilər" və ya Əfqanın "Qız atası" komediyaları otuz ildən çoxdur ki, teatrımızda oynanılır. Həmişə də salon adamla dolu olur. Əsər də var ki, hansı yolla, hansı vasitə ilə səhnəyə çıxdığını bilmirsən, məcburi hazırlanır, iki dəfə, üç dəfə göstərilib sıradan çıxır. Onun getməyi elə bir itki deyil, əsl bəla budur ki, biz neçə-neçə tamaşaçını incik salıb, itiririk".

Xalq artisti Məhəmməd Burcəliyev 61 il səhnədə olub, onunla nəfəs alıb, sevinci, kədəri ilə yaşayıb. O öz yaradıcılığında, "kiçik rol vasitəsilə böyük fikirlər ifadə etmək çətindir" mülahizəsinin mənasızlığını sübuta yetirməklə səhnədə hər obrazı tamaşaçıya zəngin ifadə vasitələri ilə təqdim etməyə çalışıb. Yəqin ki, belə olmasaydı Gəncə Dövlət Dram Teatrının səhnəsində Əfqanın "Qız atası" komediyasında Cavad kişi obrazı ilə 35 ildə 3000 dəfədən artıq çıxış etməklə tamaşaçı rəğbətini qazana bilməzdi.

Onun Gəncə Dövlət Dram Teatrının repertuar zənginliyini təmin etmək məqsədilə dramaturqların yetişdirilməsində də xidmətləri olub. Gəncədə yaşayıb-yaradan dramaturqlardan Altay Məmmədov və Fəridə Əliyarbəyli ilk səhnə əsərlərinin yaranmasının əsas səbəbkarı kimi Məhəmməd Burcəliyevin xüsusi xidmətinin olduğunu öz xatirələrində qeyd edirlər.

Altay Məmmədov yazır: "Mənim 1954-cü ildə çap etdirdiyim "Haralısan əmioğlu" hekayəsi əsasında qələmə aldığım "Həmyerlilər" pyesinin maraqlı tarixçəsi var. Bir gün dostlarımızla birlikdə yeni tamaşanın ilk baxışından sonra oturub yeyib-içirdik. Söhbət əsnasında çox yaxın ailəvi dostum olan, Xalq artisti Məhəmməd Burcəliyev qəfil mənə dedi:

- Altay, deyirəm bəlkə bir dram əsəri yazasan. Hə?...

- Nə? Mən? Dram əsəri? Nə danışırsan, ay Məhəmməd? Heç düşünmə.

- Niyə? Çox duzlu və məzəli qələmin var. Elə hekayələrin, oçerklərin bir dünyadır. Sən gəl, bir düşün.

- Yaxşı, baxarıq, – dedim. Bu söhbətdən bir müddət keçsə də Məhəmməd Burcəliyev yenə də öz fikirlərində israrlı idi və mənə dram əsəri yazmağımı təklif edirdi. Bir gün isə o, mənə "Həmyerlilər"in ideyasını verdi. Mən bu mövzu ətrafında bir xeyli düşündüm və qərara gəldim ki, "Haralısan, əmioğlu?" hekayəmin motivləri əsasında bir özümü sınayım. Belə də oldu. "Həmyerlilər"i yazdım və pyesi Gəncə Dövlət Dram Teatrının bədii şurasına təqdim etdim. Pyes oxundu və qəbul edildi. Tamaşanın quruluşçu rejissoru isə elə Məhəmməd Burcəliyev özü oldu".

Dramaturq Fəridə Əliyarbəyli isə "Xan qızı" tarixi dramının yaranması haqqında öz xatirələrində yazır: "70-ci illərin əvvəllərində Xalq artisti Məhəmməd Burcəliyev mənim dram əsəri yazmağımın səbəbkarı oldu. Mən bu xeyirxahlığı heç zaman unutmaram. Biz ailəvi dost idik. Bir gün yenə bir yerə yığışıb söhbət edirdik. O, mənə Xurşudbanu Natəvan haqqında pyes yazmağımı məsləhət gördü. Elə bu söhbətdən sonra mən Natəvan haqqında axtarışlar etdim və "Xan qızı"nı – ilk pyesimi yazdım".

Unudulmaz sənətkar Məhəmməd Burcəliyev hələ çox-çox illər öz xatirələrinin işığında uzun və əbədi bir yol gedəcək. Bitməz, tükənməz bir yol. Bu yolun işığı isə sənətkarı daima xatirələrdə yaşadacaq. Ruhu şad olsun!

**Anar BURCƏLİYEV**
**teatrşünas**

İbrahim Səfi – 120

# Rənglərin qəriblik nəğməsi

**Taleyin amansız hökmü ilə dünyanın müxtəlif guşələrinə səpələnmiş azərbaycanlılar arasında rəssamlar da az olmayıb. Sovet dönəmində vətənlə əlaqənin yoxluğu xalqımızın həmin yaradıcı soydaşlarımızdan xəbərsiz olmalarını şərtləndirib. Yalnız 1989-cu ildə Bakıdakı Azərbaycan Milli İncəsənət Muzeyində xarici ölkələrdə yaşayan azərbaycanlı rəssamların əsərlərindən ibarət "Əzizim, Vətən yaxşı..." adlı sərgi təşkil edilməsi əvvələr təbliği qadağan olunan soydaşlarımızın yaradıcılığının ictimaiyyətə təqdim olunmasına imkan verdi. Həmin məşhur sərgidə əsərləri göstərilən rəssamlardan biri də naxçıvanlı İbrahim Səfi (1898-1983) idi.**



Müstəqillik illərində bəzi mətbuat orqanlarında bu rəssam haqqında müəyyən yazılar çap olunsa da, geniş ictimaiyyət onun varlığından əsasən xəbərsiz olub. Odur ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbovun 17 oktyabr 2018-ci il tarixli sərəncamı ilə görkəmli Azərbaycan rəssamı İbrahim Səfinin (İbrahim Qafar oğlu Səfiyevin) 120 illiyinin qeyd olunmasını onun yaradıcılığına diqqət və ehtiramın ifadəsi saymaq olar...

Noyabrın 29-da Naxçıvanda İbrahim Səfinin əsərlərindən ibarət sərgi açılacaq, elmi konfrans keçiriləcək. Bəs, Azərbaycan ictimaiyyətinin bir qədər az tanıdığı İbrahim Səfi kimdir? Əgər rəssamın ömür yoluna nəzər salsaq, sovet dövründə onun adının unutdurulmasının səbəblərini öyrənə bilərik...

Zamanında rəssamın Bakıda yaşayan qohumu Zərrux xanımdan alınan məlumatlardan bəlli olur ki, o, 1898-ci ildə Naxçıvanın Baş Noraşen kəndində (indiki Şərur rayonunun Cəlilkənd kəndi) doğulmuşdur. Üç yaşında atasını itirən İbrahimin sonrakı həyatı çətinliklərlə dolu olmuşdur. O, ibtidai təhsilini doğma kənddə almış, sonra isə İrəvan Müəllimlər Seminariyasında oxumuşdu. Burada onun təsviri sənətə olan həvəsini yaxın qohumu, onunla birlikdə seminariyada oxuyan Əkbər Kazımbəyov (1890-1979) vaxtında istiqamətləndirmişdi. O, İbrahimin 12 yaşında çəkdiyi "Araz balıqçıları" rəsmində onun rəssamlıq qabiliyyətinə, güclü yaradıcı potensiala malik olduğunu görmüşdü. Odur ki, 1913-cü ildə iki qohum – İbrahim və Əkbər rəssamlıq təhsili almaq arzusu ilə Moskvaya yollanmış, oradakı mütərəqqi tədris metodu ilə seçilən Rəngkarlıq, Heykəltəraşlıq və Memarlıq Məktəbinin hazırlıq şöbəsinə daxil olmuşlar. İbrahimin müəlliminin adını bilməsək də, Əkbərin məşhur "Qara kvadrat"ın müəllifi Kazimir Maleviçin sinfində oxuması məlumdur. Ola bilsin ki, İbrahim Səfi də elə bu sinifdə oxumuşdur. Maraqlıdır ki, hər iki gənc rəssamın sonrakı sənət metodunun formalaşmasına məşhur suprematizm cərəyanı təmsilçisinin zərrə qədər də təsiri olmamışdır. Onlar yaradıcılıqlarında başlıca olaraq realist-gerçəkçi sənət prinsiplərinə üstünlük vermişlər...

Moskvadakı təhsil dövründə İbrahim Səfi müxtəlif sənət qruplarının üzvləri ilə tanış olmuş və onlarla yaxından əməkdaşlıq etmişdir. Lakin I Dünya müharibəsinin başlanması, Rusiyada baş verən inqilabi hadisələr onu Naxçıvana qayıtmağa məcbur etmişdir. Həmin illərdə doğma şəhərdə ona həmdəm ola biləcək həmkarı Bəhruz Kəngərli milli rəssamlığımızın mənəvi yükünü çəkməklə məşğul olsa da, İbrahim burada qala bilmir. 1921-ci ildə İstanbula gələn rəssam Gözəl Sənətlər Akademiyasına qəbul olunur (orada tanınmış rəssam Namiq İsmayıldan dərs alır), elə həmin ildə də çəkdiyi uğurlu kompozisiyaya görə Avropa müsabiqəsinin mükafatını alır. 1923-cü ildə təhsilini tamamlayan rəssam davamlı olaraq dünya ilə tanışlığını davam etdirmiş, ABŞ-da, Fransada, Avstriyada, İsveçrədə və digər Avropa ölkələrində fərdi sərgiləri təşkil olunmuşdur.

İbrahim Səfinin bədii irsi çox zəngindir. O, rəngkarlığın ən müxtəlif janrlarında əsərlər işləmişdir. Azərbaycan, rus və dünya boyakarlığının bədii ənənələrinə yaxından bələd olan rəssamın lövhələrində həyat hadisələrinə özünəməxsus münasibət duyulur. İstər Moskvada, istərsə də Avropanın bir çox şəhərlərində bir-birindən fərqli sənət axınları, təzadlı rəssamlıq üslubları ilə qarşılaşan rəssamın realist üsluba üstünlük verməsinin səbəbini özünün yazdıqlarından duymaq olur: "Mənim sənət anlayışım rəssamlıqda gözəllik axtarmaq və gözəllik yaratmaqdan ibarətdir. Mən gözəlliyi bəyənirəmsə, başqasına da bunu bəyəndirməyə çalışıram. Sənət xalqa uymalıdır, insanların anlayacağı şəkildə yaradılmalıdır. Mən rəssamlıqda gerçəkçiyəm, portağal çəkirəmsə, yuvarlaq çəkirəm, amma modernist onu künclü-bucaqlı çəkir..."



İbrahim Səfi Türkiyənin sayılan rəssamlarından olub. Onun müxtəlif illərdə ölkənin ən iri şəhərlərində təşkil olunan fərdi sərgiləri də buna sübutdur. Rəssamın bizə məlum olan bədii irsi ilə tanışlığa əsasən demək olar ki, müxtəlif janrlı əsərlərində əsasən realist üsluba üstünlük versə də, onun mənzərə və natürmortlarında mütərəqqi Avropa rəssamlığı ənənələrinə, xüsusilə impressionistlərə rəğbəti duyulmaqdadır. Bunu onun həmin janrda çəkdiyi əsərlərinin şux koloriti, gözoxşayan rəng keçidləri də təsdiqləyir. Rəssamın ilin müxtəlif fəsillərini əks etdirən tablolarında təbiətdəki gözəllik qaynaqlarını üzə çıxarmaq, görünənləri duyğulandırıcı bədii tutumda təqdim etmək istəyi qabarıq duyulmaqdadır. Ümumi rəng palitrasında təzadların mövcudluğu da hiss olunmaqdadır. Bu təzadlar bizi onun çəkdiyi gül-çiçəklərin, azman ağacların, dağların və düzənlərin arasında bizə dikilən vətənsizliyin acısını dadmış gözlərlə üz-üzə qoyur, desək, yanılmarıq.

Bakıda yaşamış yaxın qohumu Zərrux xanımın, sərgərdan çalğıçı Hafizin, naməlum qadının real cizgiləri ilə seçilən portretlərində rəssamın insan psixologiyasına bələdliyi duyulur. Kamançaçı Hafizə həsr olunmuş kompozisiya xüsusilə təsirlidir. Hiss olunur ki, rəssam onu yaxından tanıyırmış. Kompozisiyada o, qoca musiqiçini dörd müxtəlif vəziyyətdə təsvir etməklə yanaşı, onları sənətkarın ömür yolunun gündəlik qayğılarını xatırladan cizgilərlə əlaqələndirmişdir. Nəticədə təsirli bir əsər yaranmışdır. Rəssamın çalğıçını digər vəziyyətlərdə əks etdirən tabloları da yaddaqalandır. Bu yerdə xatırladaq ki, o həm də zamanında Türkiyə Cümhuriyyətinin qurucusu Mustafa Kamal Atatürkün portretini işləmiş ilk rəssamlardan biri olmuşdur.

Əlavə edək ki, hələ rəssamın sağlığında Türkiyədə sənət xiridarları kolleksiyasında İbrahim Səfinin əsəri olmayan bədii saxlancları natamam – "kasıb" hesab edirdilər. Elə bu gün də nüfuzlu kolleksiya sahibləri onun əsərlərinə sahib olmağı özləri üçün böyük uğur hesab edirlər. Respublikamızda İbrahim Səfinin on bir işi var. İkisini Azərbaycan Milli İncəsənət Muzeyinə rəssamın Bakıda yaşayan yaxın qohumları təqdim ediblər. Qalanları isə vaxtilə mərhum professor Abbas Zamanovun köməkliyi sayəsində Azərbaycana gətirilib və hazırda Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyində saxlanır. Rəssam 1983-cü il yanvarın 4-də İstanbulda növbəti fərdi sərgisinin açılışından sonra – elə həmin günün axşamı vəfat etmiş, İstanbuldakı Zəncirli quyu məzarlığında dəfn olunmuşdur...

Sovet dövründə onunla İstanbulda görüşən sənətşünas Rasim Əfəndi rəssamın mənzilinə baş çəkməyə də imkan tapmışdı. R.Əfəndi söyləyirdi ki, bir axşam rəssamın mənzilində mən rahat kresloda, o isə çarpayının üstündə oturmuşdu. Sənətşünas xüsusi olaraq vurğulayırdı ki, əvvəlcə onun mənimlə qonaq otağında yox, yataq otağında danışmağa qərar verməsinin fərqində olmamışdım. Mən bunun səbəbini yalnız az sonra biləcəkdim...

Vaxtımız az olduğundan İbrahim Səfi nəfəsini dərmədən danışır və soruşurdu. O, çox şeylərlə maraqlanırdı. Mən də mümkün qədər uzaq-yaxın tariximizlə, mədəniyyətimizlə bağlı suallarına cavab verməyə çalışırdım. Tez-tez qəhərlənirdi, elə hey "Darıxıram, onun üçün darıxıram! Bircə dəfə hüsnünü görsəydim, rahat ölərdim..." sözlərini dilə gətirirdi. Bunu dəfələrlə təkrarladığından mən dözməyib ondan soruşdum: "İbrahim bəy, kimin xiffətini çəkirsiniz?" Bu zaman o, əllərini bərk-bərk sıxdığı başından aralayıb arxasındakı divara, oradan asılmış tabloya tuşladı və dedi: "Onun! Onun!" Başımız söhbətə bərk qarışdığından və otaq da bir az qaranlıq olduğundan yalnız indi – onun işarəsindən sonra divardakı əsərə diqqət yetirdim. Bu İbrahim Səfinin qürbətdə çəkdiyi "İlandağ" əsəri idi...

**Ziyadxan ƏLİYEV**
**Əməkdar incəsənət xadimi**

## Kimin kim olduğuna kompüter qərar verərsə...

**Təsəvvür edin ki, bütün həyatınız kompüter tərəfindən idarə olunan sistemdən asılıdır. Buna nə qədər tab gətirərdiniz?**

Çində isə artıq belə bir sistemi tətbiq etməyə başlayıblar. Geniş rezonans doğuran "Sosial etibarlılıq sistemi"ndə insanın taleyi süni intellekt ilə müəyyən edilir. Kompüter yaxşı bir həyat sürməyə haqq edib-etmədiyinizə qərar verir.

Genişmiqyaslı məlumatların təhlili sistemi insanlar haqqında məlumat toplayır və "Etibarlılığa haqq qazananlar bütün faydalara sahibdirlər" devizi altında fəaliyyət göstərir. Sistem vasitəsilə bütün insanlar beş kateqoriyaya bölünür: AAA kateqoriyası (1050 bal), AA kateqoriyası (1000), B kateqoriyası (900), C (849) və D (599 bal) kateqoriyaları. Məsələn, əgər siz yol keçərkən yol hərəkəti qaydalarını pozursunuzsa, küçədə təmizliyə riayət etmirsinizsə və ya yaşlı (əlil) adamın yol keçməsinə köməklik göstərmirsinizsə, bütün bunlar sistem vasitəsilə qeyd olunur.

AAA elit kateqoriya hesab olunur. Bu kateqoriyanın sahibləri istədikləri işlərə qəbul edilir, kreditləri azaldılır, xəstəxanada yüksək qayğı ilə əhatə olunur, ümumiyyətlə, bütün güzəştlərdən istifadə edə bilirlər. D kateqoriyasına düşənləri isə işə götürmürlər, onlara kreditlər verilmir.

"Sosial etibarlılıq sistemi" artıq 30 şəhərdə fəaliyyət göstərir. Bu sistem 2020-ci ildən etibarən Çinin bütün ərazisində tətbiq olunacaq. Əhali bunu yüksək qiymətləndirir. Hesab edirlər ki, bu sistem vasitəsilə pozuntulara nəzarət etmək asanlaşar, insanların bir-birinə güvəni artar və D kateqoriyasının sahibləri də bu vəziyyətdən çıxaraq doğru yola davam edərlər.

**Səbinə ƏLİBALAQIZI**

## "Güney Azərbaycan folkloru"ndan növbəti dastan

**AMEA-nın Folklor İnstitutunda hazırlanan "Güney Azərbaycan folkloru" seriyasının VII cildi işıq üzü görüb. Cildə Təbriz aşıq məktəbinə aid "Şikari" dastanı daxil edilib. Kitabın tərtibçiləri institutun Güney Azərbaycan folkloru şöbəsinin müdiri, filologiya üzrə fəlsəfə doktoru, dosent Mətanət Abbasova və güneyli araşdırmaçı Böyükbəy Ələkbəroğludur.**

Qəhrəmanlıq mövzusunda olan bu dastan islamiyyətin yayılması motivi əsasında yaranıb. Dastan keçən əsrin 60-70-ci illərindən Təbriz aşıqlarının repertuarında olub, ancaq həcmi böyük olduğundan yalnız ayrı-ayrı qolları məclislərdə söylənilib. Dastanın tam variantda ifa edilməməsi müxtəlif mətnlər arasında uyğunsuzluğa gətirib çıxarıb ki, bu da tam mətnin əldə edilməsində müəyyən çətinliklər yaradıb. Azərbaycan türkcəsinin Təbriz şivəsində söylənən "Şikari" dastanı Aşıq Yədullah tərəfindən öz ustadının dilindən alınaraq bugünkü variantında qorunub saxlanıb.

"Şikari"də hadisələrin inkişaf nöqtəsi bir çox dastan və nağıllarda motivləşən iki qardaşın (Rum şahı Daranın oğullar Ərçə və Şikari) rəqabətindən başlanır. "Kitabi-Dədə Qorqud"da rast gəldiyimiz motivlər – qəhrəmanın öz ailəsinin ardınca düşmən üzərinə tək getməsi (Salur Qazanın Şöklü Məliklə qarşılaşması), oğlunu xilas etməsi (Salur Qazanın oğlu Uruzu dustaqlıqdan azad etməsi), qadınların ərə gedəcəkləri oğlanları döyüşdə sınamaqla seçmələri (Beyrək və Banuçiçəyin ilk qarşılaşması) və s. "Şikari" dastanında da öz əksini tapır.

Xatırladaq ki, "Şikari" dastanı söylənilərək yazıya alınıb. 55 saat ərzində dinlənilərək səsli fayllardan götürülən dastanda 18 ustadnamə, 225 qoşma və 65 bayatı mətni qeyd olunub. Dastanda hadisələrarası ustadnamələr, eləcə də aşığın bu və ya başqa hadisəyə münasibətini ifadə edən süjetdən kənar nümunələr əsasən Xəstə Qasım, Aşıq Ələsgər, Aşıq Şəmşir, Aşıq Mənsur, Xəstə Bayraməli və b. aşıqların şeirlərindən götürülüb.

**S.QALİBOĞLU**

## TƏQVİM 27-30 noyabr

### Azərbaycan

**27 noyabr 1912** – Xalq artisti İsa Həsən oğlu Musayev (1912-1976) anadan olub. Naxçıvan Musiqili Dram Teatrında fəaliyyət göstərib.

**27 noyabr 1934** – Əməkdar incəsənət xadimi, dirijor Kazım Ağalar oğlu Əliverdibəyov anadan olub.

**28 noyabr 1852** – Şair, mütəfəkkir Mirzə Şəfi Vazeh (14.6.1794 - 1852) vəfat edib.

**28 noyabr 1939** – Bəstəkar, Xalq artisti, professor Sevda Mirzə qızı İbrahimova anadan olub.

**28 noyabr 1941** – Xalq artisti, sirk ustası, akrobat Tofiq Hüseyn oğlu Axundov anadan olub.

**29 noyabr 1920** – Əməkdar rəssam Güllü Hacağa qızı Mustafayeva (1920-1993) anadan olub.

**29 noyabr 1928** – Azərbaycanın, Rusiyanın, SSRİ-nin Xalq rəssamı Tahir Teymur oğlu Salahov Bakıda doğulub. SSRİ Rəssamlar İttifaqı İdarə heyətinin birinci katibi olub, SSRİ Dövlət mükafatına, Sosialist Əməyi Qəhrəmanı adına layiq görülüb.

**30 noyabr 1934** – Şair, tərcüməçi İlyas Oruc oğlu Tapdıq (1934 – 25.12.2016) Gədəbəy rayonunun Əli İsmayıllı kəndində anadan olub.

### Dünya

**27 noyabr 1940** – Çin (Honkonq) aktyoru, rejissor, Şərq əlbəyaxa döyüş növlərinin ustası Brüs Li (Bruce Lee; 1940-1973) anadan olub.

**27 noyabr 1942** – Amerikalı rok musiqiçisi, gitaraçı Cimi Hendriks (Jimi Hendrix - James Marshall Hendrix; 1942-1970) anadan olub.

**28 noyabr 1757** – İngilis şairi və rəssamı Uilyam Bleyk (William Blake, 1757-1827) anadan olub.

**28 noyabr 1820** – Alman filosofu, kommunist ideologiyasının banilərindən biri Fridrix Engels (Friedrich Engels; 1820-1895) anadan olub.

**28 noyabr 1829** – Bəstəkar və dirijor, Rusiyada ilk konservatoriyanın yaradıcısı Anton Qriqoryeviç Rubinşteyn (1829-1894) anadan olub.

**28 noyabr 1881** – Avstriya yazıçısı, ədəbiyyatşünas Stefan Sveyq (Stefan Zweig, 1881-1942) anadan olub. Əsərləri: "Naməlum qadının məktubu", "Maria Stüart", "Şahmat novellası", "Dünənki dünya" və s.

**29 noyabr 1906** – Rus kinooperatoru, rejissor Roman Karmen (1906-1978) anadan olub. "Xəzər neftçiləri haqqında povest" adlı film çəkib.

**30 noyabr** Beynəlxalq informasiya təhlükəsizliyi günüdür (Computer Security Day).

**30 noyabr 1667** – İngilis (irland) yazıçısı, "Qulliverin səyahəti" əsərinin müəllifi Conatan Svift (Jonathan Swift; 1667-1745) anadan olub.

**30 noyabr 1817** – Alman filoloqu və tarixçisi, ədəbiyyat üzrə Nobel mükafatı (1902, "Roma tarixi" əsərinə görə) laureatı Teodor Momzen (Theodor Mommsen; 1817-1903) anadan olub.

**30 noyabr 1835** – Amerika yazıçısı Mark Tven (Mark Twain - əsl adı Samuel Langhorne Clemens; 1835-1910) anadan olub. "Heklberri Finnin macəraları", "Tom Soyerin macəraları" və s. romanların müəllifidir.

**30 noyabr 1937** – İngilis kinorejissoru Ridli Skott (Ridley Scott) anadan olub. Filmləri: "Əsgər Ceyn", "Qladiator", "Hannibal" və s.

**Hazırladı: Vüqar ORXAN**

## AFİŞA 29 noyabr – 2 dekabr

**Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrı (Nizami küç. 95)**

| | | |
|---|---|---|
| 1 dekabr | S.Prokofyev - "Tamahlar"; M.Ravel – "Bolero" (birpərdəli baletlər) | 19.00 |
| 2 dekabr | M.Maqomayev - "Şah İsmayıl" (opera) | 19.00 |

**Azərbaycan Dövlət Akademik Milli Dram Teatrı (Füzuli meydanı 1)**

| | | |
|---|---|---|
| 30 noyabr<br>2 dekabr | Ə.Əmirli - "Ah, bu uzun sevda yolu" | 19.00 |

**Azərbaycan Dövlət Musiqili Teatrı (Zərifə Əliyeva küç. 8)**

| | | |
|---|---|---|
| 30 noyabr | Ü.Hacıbəyli - "O olmasın, bu olsun" | 19.00 |
| 1 dekabr | O.Kazımi, R.Heydər - "Qızıl toy" | 19.00 |
| 2 dekabr | E.Sabitoğlu - "Bankir adaxlı" | 19.00 |

**Azərbaycan Dövlət Rus Dram Teatrı (Xaqani küç. 7)**

| | | |
|---|---|---|
| 29 noyabr | A.Qriboyedov adına Gürcüstan Dövlət Dram Teatrının qastrolu | 19.00 |
| | A.Varsimaşvili – "A.L.J.İ.R" | |
| 30 noyabr | Y.Poddubnaya – "Kraliçanın sonuncu ehtirası" | 19.00 |
| 1 dekabr | V.Reznikova – "Durna balığının əmri ilə" | 12.00 |
| | Y.Polyakov – "Xalam-bundu" | 19.00 |
| 2 dekabr | V.Neverov – "Nağıl qonaqlığında" | 12.00 |
| | N.Rəsulzadə - "Məmə" | 19.00 |

**Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrı (Nizami küç. 72)**

| | | |
|---|---|---|
| 1-2 dekabr | Y.Entin və V.Livanov - "Bremen musiqiçiləri" (premyera) | 12.00<br>14.00 |
| | M.F. Axundzadə - "Hekayəti-xırs quldurbasan" | 19.00 |

**Azərbaycan Dövlət Kukla Teatrı (Neftçilər pr. 36)**

| | | |
|---|---|---|
| 1 dekabr | C.Rodari - "Çipollino" | 12.00<br>14.00 |
| | C.Rodari "Çipollino" (rus dilində) | 16.00 |
| 2 dekabr | Ş.Perro - "Qırmızıpapaq" | 12.00<br>14.00 |
| | Rus xalq nağılı - "Qoğal" (rus dilində) | 16.00 |

**Yuğ Dövlət Teatrı (Neftçilər prospekti 36 - Kukla Teatrının binası)**

| | | |
|---|---|---|
| 1 dekabr | T.Nar - "Şok" | 19.00 |
| 2 dekabr | T.Vahid - "Quş dili" | 19.00 |

**Azərbaycan Dövlət Pantomima Teatrı (Azadlıq pr. 10)**

| | | |
|---|---|---|
| 1 dekabr | E.Rzayev - "Qoca və Mələk" | 18.00 |
| 2 dekabr | E.Rzayev - "Mənim balığımsan" | 18.00 |

**Heydər Əliyev Sarayı (Bülbül pr. 35)**

| | | |
|---|---|---|
| 29 noyabr | Nazim Pişyarinin (Faytonçu) solo konserti | 19.00 |

**Azərbaycan Dövlət Akademik Filarmoniyası (İstiqlaliyyət küç. 2)**

| | | |
|---|---|---|
| 29 noyabr | "Gənclərə dəstək" layihəsi çərçivəsində konsert<br>Q.Qarayev adına Azərbaycan Dövlət Kamera Orkestri<br>Dirijor - Orxan Həşimov; solist - Beren Gürcüoğlu (Türkiyə, piano) | 19.00 |
| 30 noyabr | Ü.Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestrinin konserti<br>Dirijor - Elşad Bağırov | 19.00 |

**Beynəlxalq Muğam Mərkəzi (Dənizkənarı Milli Park)**

| | | |
|---|---|---|
| 29 noyabr | Qəzəl axşamı – Seyid Əzim Şirvani | 19.00 |

№87 (1577)
29 noyabr 2018
www.medeniyyet.az

# Vyana Ştraus Festival Orkestri paytaxtımızın qonağı olub

## "Bu gözəl şəhərdəki möhtəşəm memarlıq abidəsində üçüncü dəfə çıxış etməkdən çox məmnunuq"

Vyana Ştraus Festival Orkestri noyabrın 26-da Heydər Əliyev Mərkəzində konsert proqramı ilə çıxış edib. Konsert orkestrin yaradıcısı və bədii rəhbəri Peter Qutun dirijorluğu ilə keçib.

Peter Qut bu gözəl şəhərdə - Bakıda, Zaha Hadidin layihə müəllifi olduğu möhtəşəm memarlıq abidəsində artıq üçüncü dəfə çıxış etdiklərini və bundan çox məmnun olduqlarını bildirib. "Vyana musiqisini çoxları sevir. Bu qədər insanın bizi dinləməyə gəlməsindən çox xoşbəxtik", - deyə o vurğulayıb.



Vyana Ştraus Festival Orkestri 2014-cü və 2016-cı illərdə də Heydər Əliyev Mərkəzində çıxış edib. Orkestrin budəfəki konserti də anşlaqla keçib.

Konsertdə dünya şöhrətli avstriyalı bəstəkar, "valsın kralı" İohan Ştrausun, həmçinin digər klassiklərin – ata İohann Ştrausun, Yulius Fuçik, Yozef Ştraus, Eduard Ştraus və Karl Mixael Tsirerin əsərləri təqdim olunub. Peter Qut proqram boyu ifa etdikləri əsərlər və onların müəllifləri barədə məlumat verib.

Tamaşaçılarla canlı ünsiyyət quran dirijor maraqlı improvizasiyalar edib, izləyiciləri konsertin fəal iştirakçısına çevirib. O, həmçinin skripkada ifa edib. Orkestrin çıxışı alqışlarla qarşılanıb.

1978-ci ildən fəaliyyət göstərən orkestr Vyana musiqi ənənələrinin qoruyucusu kimi klassik əsərlərdən, o cümlədən Ştrauslar sülaləsinin bəstələrindən ibarət geniş repertuarı ilə dünyada nüfuz qazanıb.

Peter Qut Vyana Musiqi Akademiyasında təhsil alıb, sonra üç il Moskva Dövlət Konservatoriyasında tanınmış skripkaçı və dirijor David Oystraxın sinfində məşğul olub. Mütəmadi olaraq tanınmış simfonik və kamera orkestrləri ilə qastrollara çıxır.



# "Bakı incəsənət marşrutuna necə çevrilir?"




əvvəli səh. 1-də

Yazıda vurğulanır ki, beynəlxalq səviyyəli media nümayəndələrinin iştirakı ilə geniş reklam olunan festivallar və müasir memarlıq abidələri bu təkana nümunədir. Bunlar hökumət və korporativ sponsorlar tərəfindən maliyyələşdirilir və onlar xalq yaradıcılığının bu cür beynəlxalq səviyyəli layihələrlə yaradılan şəraitdə inkişaf edəcəyini düşünürlər.

Məqalə müəllifi M.A.P. festivalının 2011-ci ildə Aida Mahmudova tərəfindən yaradılan YARAT Müasir İncəsənət Məkanının yeni layihələrindən biri olduğunu qeyd edərək bildirir ki, 2017-ci ildə ilk təşkil olunan festival bu dəfə əhatə dairəsini genişləndirib. Builki festivalda doqquz ölkədən 16 tamaşa göstərilib. Vurğulanır ki, bu festivalda təqdim olunan tamaşalar Bakıda sənətsevərlərin görüb-alışdığı tamaşalardan fərqli səhnə əsərləridir.

Müəllif daha sonra layihənin kuratoru, YARAT Müasir İncəsənət Məkanının bədii rəhbəri Suad Qarayeva-Maleki ilə söhbətini diqqətə çatdırır. O, vurğulayır ki, Azərbaycan müstəqilliyinin bərpasından sonra ilk illərdə çətin bir dövr yaşayıb. Bu gün dövlətin dəstəyi sayəsində incəsənət inkişaf edir. Azərbaycan hökuməti mədəni təşəbbüsləri, müxtəlif festivalları dəstəkləyir. Bakının yeni memarlıq simalarına çevrilən Xalça Muzeyi, Heydər Əliyev Mərkəzi kimi tikililər şəhəri gözəlləşdirir.

S.Qarayeva-Maleki qeyd edir ki, YARAT təşkilatının fəaliyyətinin bir hissəsi şəxsi emalatxanalarda, "ev şəraiti"ndə yaranan incəsənətin "alovunu gücləndirmək" və gənc azərbaycanlı rəssamların özlərinin tanıdılmasına kömək etməkdir. YARATın ARTIM Layihə Məkanı bu gənc nəslə uyğun gəlir.

Məqalə müəllifi qeyd edir ki, YARAT-ın təşəbbüsləri, "imkanlar və nisbətlər" məkanı olması Kolumbiyada doğulmuş, hazırda Norveçdə yaşayan Pedro Gomez-Eganа-nı öz işlərini Azərbaycana gətirməsi üçün həvəsləndirib. O, həmçinin YARAT-ın bədii rəhbəri Suad Qarayeva-Malekinin vizyonundan ilhamlanıb. Rəssam deyir ki, Suad Qarayeva-Maleki ilə görüşdən əvvəl Bakı mənim planımda yox idi. "İncəsənət hər zaman şəhərin brendləşməsi üçün bir üsul ola bilər. Ancaq bu cür imkanların nəyə qadir olduğuna da dəyər verməliyik. Auditoriya toplayan və təcrübələr yaradan gözəl işlər nümayiş etdirə bilən maraqlı insanlar və ideyalar var", - deyə kolumbiyalı rəssam bildirir.

"İndependent"in yazarı məqalənin sonunda Azərbaycan paytaxtında "mütləq ziyarət edilməli olan" mədəniyyət və incəsənət məkanlarını da oxucuların diqqətinə çatdırır. Bu sırada Heydər Əliyev Mərkəzi, Azərbaycan Xalça Muzeyi, YARAT Müasir İncəsənət Məkanı, YARAT Rəngkarlıq Muzeyi və digər məkanlar qeyd edilir.

# Rusiyada yaşayan azərbaycanlı gənclərin fotomüsabiqəsi



Rusiyanın Azərbaycanlı Gənclər Birliyi (RAGB) "Leto AMOR-2018" yay əhvalatları fotomüsabiqəsinin qaliblərini elan edib. Müsabiqə hər il Heydər Əliyev Fondunun vitse-prezidenti, RAGB-nin sədri Leyla Əliyevanın təşəbbüsü ilə keçirilir.

Bu il müsabiqəyə 300-dən çox foto təqdim edilib. Qaydalara görə, iştirakçılar çəkdikləri fotoları "İnstagram" sosial şəbəkəsində öz səhifələrində yerləşdirməli və onlara yay əhvalatı barədə kiçik hekayə əlavə etməli idilər.

RAGB-nin idarə heyətinin üzvü Emin Hacıyev mərasimdə çıxış edərək iştirakçılara təşkilatın sədri Leyla Əliyevanın salamlarını çatdırıb. Qeyd edib ki, azərbaycanlılar Rusiyanın ictimai, sosial-iqtisadi və mədəni həyatında çox fəal iştirak edirlər. O, həmçinin azərbaycanlı gəncləri "Rusiyanın görkəmli şəxsiyyətləri" layihəsi üzrə səsvermədə fəal iştirak etməyə çağırıb. Vurğulayıb ki, Surqut və Nijnevatrovsk, həmçinin Novı Urenqoy aeroportlarında yekun səsvermə siyahısına məşhur azərbaycanlıların – geoloq Fərman Salmanov və keçmiş SSRİ-nin qaz sənayesi naziri Sabit Orucovun adları daxil edilib.

Sonra müsabiqənin qalibləri elan olunub. Səbinə Haşımova "Etnoqrafik rəsmlər", Diana Dadaşova "Təbiətin naxışları", Leyla Süleymanova "Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi – tariximiz, bu günümüz və gələcəyimiz" nominasiyalarında qalib olub. "Bakı və bakılılar. Komfortlu şəhər" və "Küçə fotoqrafı" nominasiyalarında Ülvi Novruzov və Sevinc Alıyeva qalib adını qazanıb.

# Parisdə gənc pianoçunun konserti



Parisin "Ycole normale de musique de Paris-Alfred-Cortot" ali musiqi məktəbində tanınmış pianoçu Rəna Şereşevskayanın sinif konserti keçirilib.

Məktəbdə təhsil alan Rəna Şereşevskayanın tələbəsi, pianoçu Vurğun Vəkilovun konsertdə çıxış edib. O, Robert Şumanın "Simfonik etüd"lərini ifa edib.

Qeyd edək ki, V.Vəkilov Bülbül adına Orta ixtisas musiqi məktəbində təhsil alıb.

İtaliyanın Pesaro şəhərində keçirilmiş VIII "Çitta di Pesaro" beynəlxalq müsabiqəsinin qalibi olub. Bir çox müsabiqə və festivallarda uğur qazanmış V.Vəkilov adı Azərbaycanın gənc istedadlarının "Qızıl kitabı"na yazılmaqla Prezident təqaüdünə layiq görülüb.

# Moskvada "Türkiyə günü"

2019-cu ilin Rusiyada "Türkiyə ili", Türkiyədə isə "Rusiya ili" elan olunması ilə bağlı hər iki ölkədə hazırlıq işləri davam edir. Noyabrın 22-də Moskvada keçirilən "Türk mədəniyyəti günü" də belə tədbirlərdən biri idi.

Moskva Yunus Əmrə İnstitutu və Rusiya Dövlət Humanitar Elmlər Universitetinin işbirliyi ilə düzənlənən tədbirdə Türkiyənin Rusiyadakı səfiri Hüseyn Diriöz, universitetin rektoru Yefim Pivovar, prorektor Vera Zabotkina, Yunus Əmrə İnstitutunun rəhbəri Ömər Özkan, Rus-Türk Təhsil və Araşdırma Mərkəzinin müdiri Aleksandr Vasilyev, tələbələr iştirak edirdi.

Ömər Özkan Rusiyadakı universitetlərdə çox sayda türkoloq və Türkoloji bölümündə təhsil alan tələbələr bu zəmində əlaqələrin daha da inkişaf etdirilməsinin vacibliyini vurğuladı: "Türk mədəniyyəti günü" də bu əlaqələr istiqamətində bir layihədir. Ümumiyyətlə, Türkiyə və türk mədəniyyəti ilə bağlı keçirdiyimiz hər bir tədbir maraqla qarşılanır. 2019-cu il bu baxımdan hər iki ölkə üçün zəngin il olacaq".

Rektor Yefim Pivovar universitetin nəzdində fəaliyyət göstərən Rus-Türk Təhsil və Araşdırma Mərkəzi ilə Yunus Əmrə İnstitutu arasında sıx əlaqələrin qurulduğunu qeyd etdi: "Belə yaxın işbirliyindən biri də bu yaxınlarda universitetimizdə gerçəkləşdirilən "Arxiv sənədlərində 500 illik Rusiya-Türkiyə əlaqələri" adlı sərgi oldu. Hazırda tələbələrimiz türk dilini öyrənir".

Çıxışlardan sonra tədbirin bədii hissəsində universitetin Türkologiya bölümündə təhsil alan tələbələr Türkiyə ilə bağlı təqdimat etdilər. Türk şeirləri, mahnıları səsləndirildi, Nəsrəddin xocanın lətifələri ilə bağlı səhnəciklər nümayiş etdirildi. Rusiyalı tələbələrdən biri Azərbaycan şairi Nəsiminin şeirini söylədi. Sonra ebru sənəti ilə bağlı seminar keçirildi.

**Mehparə SULTANOVA**
**Moskva**

# "Ekspo 2025" Dünya Sərgisi Yaponiyada keçiriləcək

OSAKA-KANSAI/JAPAN EXPO2025

Noyabrın 23-də Parisdə Beynəlxalq Sərgilər Bürosu Baş Assambleyasının 164-cü sessiyasında 2025-ci il "Ekspo" Dünya Sərgisinin ev sahibinin müəyyən edilməsi üçün yekun səsvermə keçirilib.

Həlledici mərhələdə Azərbaycanın paytaxtı Bakı, Yaponiyanın Osaka və Rusiyanın Yekaterinburq şəhərləri yarışıb. 150-dən çox ölkənin qatıldığı ilk tur səsvermədə iddiaçı şəhərlərdən heç biri tələb olunan üçdə iki çoxluğu qazana bilməyib. İkinci tura Osaka və Yekaterinburq keçib. Səsvermə nəticəsində Osaka 92 səslə qalib gəlib. Beləliklə, 2025-ci ildə dünyanın ən böyük sərgisini Yaponiyanın üçüncü böyük şəhəri – Xonsyu adasındakı Osaka qəbul edəcək.

Bakı şəhərinin namizədliyi üzrə İşçi qrupun sədri, Azərbaycan Respublikasının maliyyə naziri Samir Şərifov səsvermədən sonra deyib: "Osakanı təbrik edirik və 2025-ci ildə ona uğurlar arzulayırıq. Keçirdiyimiz möhtəşəm kampaniyaya və belə güclü namizədlərlə mübarizə apardığımıza görə qürur duyuruq. Bakı şəhərinin namizədlik kampaniyası Azərbaycan üçün çox faydalı təcrübə oldu. Son on səkkiz ay ərzində ölkəmiz və paytaxtımız Bakı, eləcə də Azərbaycanın əldə etdiyi nailiyyətlər haqqında məlumatları dünya ilə bölüşə bildik. Dünya Azərbaycanı daha yaxından tanıdı".

Qeyd edək ki, əsas "Ekspo" Dünya Sərgisi beş ildən bir keçirilir. 2015-ci ildə Milanda keçirilmişdi, 2020-ci ildə bu sərgiyə Dubay ev sahibliyi edəcək. Bundan əlavə, ayrı-ayrı illərdə tematik və qısamüddətli "Ekspo" sərgiləri (2016 – Antalya, 2017 – Astana və s.) təşkil edilir.

# "Uşaq Avroviziya-2018" müsabiqəsində polşalı ifaçı qalib gəlib

Noyabrın 25-də Belarusun paytaxtı Minskdə keçirilən "Uşaq Avroviziya-2018" mahnı müsabiqəsində Polşa təmsilçisi Roksana Vengel qalib gəlib. Azərbaycan təmsilçisi Fidan Hüseynovanın da qatıldığı müsabiqədə rekord sayda – 20 ölkə iştirak edib.



Qeyd edək ki, bu dəfə tətbiq edilən yeni qaydalara əsasən hər ölkə öz təmsilçisinə də səs vermək hüququ qazanıb. Həmçinin elektron səsverməyə daha artıq vaxt ayrılıb. Noyabrın 23-də axşam saatlarından mahnı müsabiqəsinin rəsmi saytında tamaşaçıların onlayn səsverməsi başlayıb. Səsvermə müsabiqənin rəsmi açılışına qədər, yəni noyabrın 25-də yerli vaxtla saat 18.00-dək davam edib. Final günü sonuncu iştirakçının ifasından sonra səsvermə 15 dəqiqə ərzində yenidən aktivləşib. Elektron səslər ballara çevrilərək münsiflər heyətinin səs aktivinə əlavə olunub. Yeni faktiki olaraq qalibin müəyyənləşməsində tamaşaçı rəğbəti (elektron səsvermə) həlledici rol oynayıb.

Nəticədə Polşa təmsilçisi Roksana Vengel 215 bal toplayıb. İkinci yeri Fransa nümayəndəsi (203 bal), üçüncü yeri Avstraliya təmsilçisi (201 bal) tutub. Fidan Hüseynova 47 balla 16-cı olub.

"Uşaq Avroviziya" müsabiqəsi 2003-cü ildən keçirilir. Gələn il növbəti yarışmaya Polşa ev sahibliyi edəcək.

**İLONA**

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri
MƏDƏNİYYƏT
Qəzet 1991-ci ilin yanvarından çıxır

**Baş redaktor:** Vüqar Əliyev

**Ünvan:** AZ 1012, Moskva pr, 1D.
Dövlət Film Fondu, 5-ci mərtəbə

**Telefon:** (012) 431-57-72 (redaktor)
530-34-38 (məsul katib)
430-16-79 (müxbirlər)
511-76-04 (mühasibatlıq, yayım)
**E-mail:** qazet@medeniyyet.az
**Lisenziya №** AB 022279
**İndeks:** 0187

"Mədəniyyət" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.
**Tiraj:** 5178
**Sifariş:** 3602
**Buraxılışa məsul:** Fariz Yunisli
Yazılardakı faktlara görə müəlliflər cavabdehdir.
Qəzetdə AZƏRTAC-ın materiallarından da istifadə edilir.